RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 27 (8906) BAZAR, 6 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İlham Əliyevin enerji siyasətinin təntənəsi



## "Cənub qaz dəhlizi" Azərbaycanın qlobal müstəvidəki mövqelərini daha da möhkəmləndirib

2020-ci ilin sonunda Azərbaycanın müasir tarixinin növbəti əlamətdar hadisələrindən biri baş verdi: Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan təbii qaz həmin il dekabrın 31-də Avropaya çatdırıldı. Bu, Vətən müharibəsindəki şanlı Zəfərdən sonra xalqımızı və dövlətçiliyimizi şərəfləndirən növbəti tarixi uğur idi.

### Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edən nəhəng infrastruktur

Uzun müddətdir ki, enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünyada ən aktual müzakirə mövzusuna çevrilib. Hətta enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas tərkib hissələrindən biri kimi nəzərdən keçirilir. Elə buna görədir ki, son onilliklərdə iqtisadi və siyasi məzmunlu beynəlxalq konfransların gündəliyinin başlıca müzakirə predmetlərindən biri enerji təhlükəsizliyi ilə bağlı olur. Xüsusən Avropa dövlətləri öz enerji təhlükəsizliklərinin daha yüksək səviyyədə təmin olunmasına, bu məqsədlə alternativ mənbələrdən enerji dəhlizlərinin yaradılmasına ehtiyac duyurlar.

Düzdür, son dövrlərdə bu məqsədlə müxtəlif təşəbbüslər ortaya atılıb. Lakin onların hamısı siyasi və iqtisadi iradənin olmaması səbəbindən kağız üzərində qalıb. Artıq tam gücü ilə istifadəyə düşən "Cənub qaz dəhlizi" isə məhz Azərbaycanın təşəbbüsü, Azərbaycan Prezidentinin siyasi iradəsi və qətiyyəti nəticəsində reallığa çevrilən və Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edən mühüm və böyük enerji infrastrukturudur.

"Cənub qaz dəhlizi"nin həyata vəsiqə alması bir çox mərhələlərdən keçib. Bəlkə də bəzilərinə illər öncə bu layihənin reallaşması qeyri-mümkün görünürdü. Lakin İlham Əliyevin müdrikliyi və siyasi iradəsi, layihə iştirakçıları arasında düzgün koordinasiyanın təşkili, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq, Avropa İttifaqının siyasi dəstəyinin təmin olunması bu layihənin hər bir mərhələsinin uğurla tamamlanmasını təmin etdi.

Ardı 3-cü səh.

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanla telefonla danışıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı koronavirus xəstəliyinə yoluxması ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və həyat yoldaşı Əminə xanıma öz adından və Mehriban xanımın adından cansağlığı arzulayıb və şəfa diləklərini yetirib.

Türkiyə Prezidenti göstərilən diqqətə görə dövlətimizin başçısına və Mehriban xanıma öz adından və Əminə xanımın adından təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

## «Cənub qaz dəhlizi» layihəsi başa çatıb, bizim işimiz isə davam edir»

### Layihə iştirakçıları Azərbaycanla enerji sahəsində uzunmüddətli strateji əməkdaşlıq niyyətindədirlər

Bu il fevralın 4-də Bakıda keçirilən "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısı sayca 8-ci idi.

Keçən il koronavirus pandemiyası səbəbindən videokonfrans formatında keçirilən 7-ci iclası nəzərə almasaq, 2015-ci ildən üzübəri ildə bir dəfə, adətən fevral ayında baş tutan bu tədbirə həmişə Azərbaycan evsahibliyi edib. Bu da XXI əsrin nəhəng layihələrindən biri - "Cənub qaz dəhlizi"nin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğunu təsdiqləyən faktlardandır.

Yenə də toplantıda Avropa İttifaqının, eləcə də ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya və bir sıra digər ölkələrin yüksəksəviyyəli nümayəndələri bir araya gəldilər. Builki iclasda keçən illə müqayisədə daha çox ölkə və şirkət iştirak edirdi. Yeni iştirakçıların olması isə o deməkdir ki, Azərbaycan qazına yeni bazarlarda ehtiyac var.

Ardı 3-cü səh.

## Növbəti diplomatik uğur

### Prezident dördtərəfli görüşdə qətiyyətli mövqeyini bir daha ortaya qoyaraq qalib Azərbaycanın tələb və şərtlərini bildirdi

İkinci Qarabağ müharibəsinin qalib və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən işlərin vəziyyəti, eləcə də Avropa İttifaqının bu prosesdə vasitəçiliyi fevralın 4-də bir daha müzakirə mövzusuna çevrildi.

Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda baş tutan görüşdə postmüharibə dövrünün reallıqlarından, öhdəliklər və icra prosesindən söhbət açıldı.

Ardı 2-ci səh.

## Yol çəkmək işin yarısıdır

### Qalan yarısı onu qoruyub saxlamaqdır

Bir neçə il bundan öncə istifadəyə verilən Ələt-Astara magistral şose yolu dünya standartları səviyyəsində qurulmuşdur. Dördzolaqlı yol boyunca çaylar üzərində tikilən möhtəşəm körpülərin özü tikinti-memarlıq əsəridir.

Bax: səh. 5

## Naxçıvan təhsilin inkişafında liderdir

### Muxtar respublikanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında davamlı şəkildə necə rekordçu olurlar?



...Azərbaycanda ən çox xarici tələbənin hansı ali məktəbdə təhsil aldığını bilirsinizmi?

Bu, heç də yaşı 80-100 olan universitetlər, tanınmış akademiyalar deyil. Blokada şəraitinin ağır çətinlikləri, fəsadları altında fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetidir...

Bu informasiya muxtar respublikada təhsillə bağlı eşitdiyimiz ilk, ancaq son müsbət təəccübümüz olmadı. Bəli, təhsildə heyrətə səbəb olan faktlar, proseslər nə yaxşı ki, hələ də var imiş...

### 55 yaşlı müdrik cavan

1967-ci ildə 3 ixtisas üzrə 3 ştatlı müəllim və 102 tələbə ilə Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi ilk qədəmini atan, 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilən, artıq 22 ildir dövlət universiteti kimi fəaliyyət göstərən bu 55 yaşlı ali məktəb indi muxtar respublikanın təhsil bayraqdarıdır. Bununla bərabər, ölkə miqyasında xeyli təhsil ilklərinə müəlliflik edir və pafoslu planları, bəlağətli hədəfləri ilə deyil, məhz konkret fəaliyyət nəticələri, real uğurları ilə çox "təhsil flaqmanından" önə keçir.

Heydər Əliyev Naxçıvan Dövlət Universitetini (NDU) hər zaman xüsusi himayə edib, onun inkişafı üçün düzgün yol müəyyənləşdirib. İlk dəfə 48 il əvvəl - 1974-cü ildə olduğu, sonradan isə dəfələrlə ziyarət etdiyi universitet barədə Ulu Öndər deyirdi: "Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam. Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir".

Ardı 4-cü səh.

## «Taclı virus» və qlobal iqtisadiyyat

### Reallıq və proqnozlar nədən xəbər verir

Beynəlxalq Valyuta Fondu (BVF) qlobal iqtisadiyyatla bağlı proqnozlarına dəyişikliklər etmişdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) yaydığı məlumatda belə deyilir: "Hesabatda gözlənildiyinin əksinə olaraq, 2022-ci ilə qlobal iqtisadiyyat daha zəif göstəricilərlə daxil olmuşdur. Yeni ştamların meydana gəlməsi ilə bir sıra ölkələrdə məhdudiyyətlərin tətbiqinin yenilənməsi bu prosesə öz mənfi təsirini göstərmişdir.



Enerji qiymətlərinin artması və təklif kanallarındakı pozulmalar inflyasiya proseslərinin gözləniləndən daha yüksək olmasına səbəb olmuşdur".

Ardı 8-ci səh.

## Ermənistan ordusunda ölüm kabusu yaşanır

### Ötən il ölkənin 76 hərbçisi həlak olub

Ermənistanda getdikcə ağırlaşmaqda olan sosial-iqtisadi vəziyyət ölkədə hakimiyyətə qarşı etiraz dalğalarını da genişləndirir.

Bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da böyük problemlər yaşanır. Bunu şərtləndirən əsas səbəblər ölkənin həm ağır iqtisadi durumu, üzləşdiyi maliyyə çətinlikləri, həm də hakimiyyətin orduya etinasız münasibətidir.

Ardı 8-ci səh.

# Gabrielius LANDSBERGİS: "Litva həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib"



Milli Məclisin Sədri Sahibə Qafarova Litva Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Gabrielius Landsbergislə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Milli Məclisinin rəhbərini və onun başçılıq etdiyi nümayəndə heyətini səmimiyyətlə salamlayan Gabrielius Landsbergis ölkələrimiz arasında yaxşı əlaqələrin olduğunu deyib. O, ölkəmizə iki dəfə səfər etdiyini xatırladaraq bu səfərlərdən məmnunluğunu bildirib. Litva XİN rəhbəri ölkəsinin Azərbaycanla uğurlu birgə layihələr həyata keçirdiyini söyləyib. Gabrielius Landsbergis Litvanın həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini qeyd edib.

Göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova bu səfərin onun parlamentin spikeri kimi Litvaya ilk səfəri olduğunu deyib. O, səfərin Litva Respublikası Seyminin sədri Viktoriya Çmilite Nielsenin dəvəti ilə reallaşdığını diqqətə çatdırıb. Milli Məclisin Sədri səfər çərçivəsində keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Bu səfərin ikitərəfli əlaqələrin daha da inkişafına töhfə verəcəyinə, Azərbaycan ilə Litva arasında dostluq və əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Azərbaycan və Litvanın dost ölkələr olduğunu deyən parlamentin sədri bildirib ki, iki ölkə arasında münasibətlər bir çox sahələri əhatə etməklə xalqlarımızın maraqlarına cavab verir. S.Qafarova bu gün münasibətlərimizin daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. O, bu kontekstdə qanunverici orqanlar arasında əlaqələrin daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıb.

Litvanın Avropa İttifaqına (Aİ) üzvlüyünü nəzərə alaraq, Azərbaycan ilə Aİ arasında əlaqələr haqqında danışan Milli Məclisin Sədri qeyd edib ki, ölkəmiz bu qurumla əməkdaşlığa böyük əhəmiyyət verir. Sahibə Qafarova Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin 2021-ci ilin iyulunda Azərbaycana səfərini və Prezident İlham Əliyevin Avropa İttifaqının Brüsseldə keçirilən 6-cı Şərq Tərəfdaşlığı Sammitində iştirakını xatırladıb. Onun sözlərinə görə, Aİ ilə enerji sahəsində əməkdaşlıq da böyük əhəmiyyət kəsb edir. Azərbaycan neftlə yanaşı, həm də "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın etibarlı qaz tədarükçüsünə çevrilib. Bu, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi Qələbəsindən sonra regionda yeni yaranmış reallıqlar barədə də danışan Milli Məclisin Sədri deyib ki, artıq münaqişə tarixdə qalıb. Azərbaycan öz imkanları hesabına işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq və bərpa işləri həyata keçirir. Azərbaycan regionda daim sülh və təhlükəsizliyin təmin olunmasını istəyir və Ermənistana bir-birinin suverenliyinin, ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanması, regionda bütün kommunikasiyaların bərpası və münasibətlərin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması ilə bağlı təkliflər verib. Ermənistan regionda yeni reallığı dərk etməli və sülh və sabitliyin bərqərar olması istiqamətində üzərinə düşən vəzifələri yerinə yetirməlidir.

Milli Məclisin Sədri ölkəmizin həyata keçirdiyi layihələr və mövcud olan investisiya imkanları barədə məlumat verərək deyib ki, Ələt Azad İqtisadi Zonasına, işğaldan azad edilmiş ərazilərimizdə yaradılan Araz Vadisi İqtisadi Zonasına, Ağdam Sənaye Parkına, aqroparklara, informasiya-kommunikasiya texnologiyaları və bərpaolunan enerji sahələrinə investisiya qoyuluşu üçün çox gözəl imkanlar mövcuddur. Sahibə Qafarova bildirib ki, Azərbaycan Litva şirkətlərini də ölkəmizdə həyata keçirilən layihələrə investisiya yatırmağa dəvət edir. Milli Məclisin Sədri Zəngəzur dəhlizinin strateji əhəmiyyətindən də danışaraq qeyd edib ki, bu dəhlizin açılması nəinki region üçün, o cümlədən Avropa İttifaqına üzv olan ölkələr üçün də yeni imkanlar yaradacaq.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Növbəti diplomatik uğur

*Əvvəli 1-ci səh.*

## Azərbaycan öhdəliklərinə sadiqdir

Prezident İlham Əliyev bundan əvvəl keçirilən Soçi və Brüssel görüşlərində olduğu kimi məğlub və çarəsiz görünən Nikol Paşinyandan fərqli olaraq, qalib və mövqeyini daha da möhkəmləndirmiş lider kimi əsl həqiqətləri səsləndirdi.

İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət yetirdi.

Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini qabardan Prezident qeyd etdi ki, Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıb.

Sonra Brüssel danışıqlarının davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr keçirildi. Bu xüsusda, tədbirin əvvəlcədən müəyyən edilmiş gündəliyinə uyğun olaraq, iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparıldı. İlham Əliyev müzakirə olunan məsələlər barədə Azərbaycanın qəti mövqeyini bir daha vurğuladı.

Ötənilki Brüssel görüşü zamanı da Şarl Mişelin açıqlamaları və bu dəfə ortaya qoyulan münasibət bir daha onu göstərir ki, Avropa İttifaqı regionda dayanıqlı sülhün yaranmasında, postmünaqişə dövrünün bütün yaranan problemlərinin aradan qaldırılmasında maraqlıdır.

Fevralın 4-də xarici işlər naziri Ceyhun Bayramovla Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi arasında keçirilən görüşdə səslənən fikirlər də bunu bir daha təsdiqləyir. Görüş zamanı nazir bölgədə mövcud olan cari vəziyyət, Ermənistan ilə münasibətlərin normallaşması və delimitasiya prosesi, eləcə də mina təhlükəsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verib. O, həmçinin bölgədə həyata keçirilən bərpa və yenidənqurma işləri və bu xüsusda Aİnin mümkün rolundan danışıb. Komissar Oliver Varhelyi Aİ üçün Azərbaycan ilə tərəfdaşlıq münasibətlərinin böyük əhəmiyyət kəsb etdiyini və bu münasibətlərin daha da gücləndirilməsinin vacib olduğunu qeyd edib. O, Azərbaycanın Aİ-nin etibarlı tərəfdaşı olduğunu vurğulayıb və iqtisadi sərmayə planı çərçivəsində ölkəmizə 2 milyard avroluq maliyyə paketinin ayrıldığını bildirib. Bu çərçivədə konkret layihələrin reallaşmasının nəzərdən keçirildiyini diqqətə çatdıran O.Varhelyi, habelə Aİnin Azərbaycanda həyata keçirilən bərpa və yenidənqurma prosesində iştirak etməyə hazır olduğunu ifadə edib.

## Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyi davam edir

Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan, mövqeyi nəzərə alınan dövlətdir. Ölkəmiz region ölkələri, dünyanın aparıcı dövlətləri və üzvü olduğu beynəlxalq təşkilatlar ilə qarşılıqlı etimada əsaslanan münasibətlərini inkişaf etdirməklə yanaşı, xarici siyasətini yeni vektorlarına uyğun olaraq fəal diplomatiya nümayiş etdirir.

Fevralın 4-də keçirilən görüşdə də İlham Əliyev qətiyyətli möveyini bir daha ortaya qoyaraq bildirdi ki, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyi, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi həll edilməli, kütləvi məzarlıqlar və onların yerləri dəqiq koordinatlarla Ermənistan tərəfindən verilməlidir.

Həmçinin işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstək artırılmalıdır. Dəmir yolu xətti və avtomobil yolu ilə Zəngəzur dəhlizinin açılması prosesi reallaşmalıdır.

Bu görüş fonunda Şarl Mişel və Emmanuel Makron birgə bəyanat imzalayıblar. Sənəddə Minsk Qrupuna istinad yoxdur. Moskva, Soçi və Brüsseldə keçirilmiş görüşlərin mahiyyətinə uyğun olaraq Minsk qrupuna istinad yer almayıb. Eyni zamanda bəyanatda Dağlıq Qarabağ münaqişəsi və hətta Qarabağ kimi ifadə yoxdur.

Əlbəttə ki, bu, Qarabağ mövzusunun tamamilə gündəlikdən çıxmasının növbəti nüminəsidir. Fransa ATƏT-in Minsk qrupu həmsədr olaraq bu reallığı qəbul edir. Fransa bu görüşdə həmsədr kimi deyil, Avropa İttifaqına sədrliyi qəbul etmiş ölkə kimi iştirak edir.

Beləliklə, hadisələrin gedişatı onu deməyə əsas verir ki, Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyi davam edir. Bu gündəliyin əsasını Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, minaların təmizlənməsində Azərbaycana yardım və etimad quruculuğu kimi məsələləri özündə ehtiva edir.

Bir sözlə, budəfəki 4 tərəfli görüş də İlham Əliyevin növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir. Hadisələrin gedişi bir daha göstərir ki, regionda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında dövlətlər arasında siyasi, iqtisadi, ekoloji, sosial və mədəni sahələrdə münaqişə dövrünün bütün mərhələlərində və təhlükəsizliyin həyata keçirilməsi tədbirlərində etimad quruculuğu məsələsi mühüm əhəmiyyət kəsb edir. Bu isə həm sistemli yanaşma, həm də beynəlxalq dəstək tələb edən bir məsələdir. Həll edilməmiş məsələlərin davamlı həllinə zəmin yaratmaq üçün etimad quruculuğu işində qarşılıqlı siyasi iradə olmalıdır. Azərbaycan tərəfi davamlı olaraq siyasi iradə və qətiyyət göstərir. Xüsusən də Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycanın həyata keçirdiyi layihələr bunu bir daha təsdiqləyir. Ermənistanda da yaxşı anlayırlar ki, çıxış yolu Azərbaycanla hesablaşmaqdır. Əks təqdirdə bu ölkə yenə də acınacaqlı duruma düşəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Almaniyada dərc olunan qəzetdə Azərbaycanda yəhudi icması ilə bağlı məqalə yayımlanıb

"Jüdische Rundschau" qəzetinin fevral buraxılışında "Azərbaycanda holokostun anılması və yəhudi həyatı" başlıqlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalənin müəllifli Urs Unkaufdır.

Məqalədə bildirilir ki, Azərbaycan İsraillə dostluq münasibətləri saxlayır və ölkədə yəhudi mədəniyyətinin inkişafına xüsusi diqqət yetirilir. Vurğulanır ki, Azərbaycan Holokost Qurbanlarının Beynəlxalq Anım Gününü qeyd edən azsaylı müsəlman ölkələrindəndir. Belə ki, 2022-ci il yanvarın 27-də bu əlamətdar gün Azərbaycanda qeyd olunub. Məqalədə bu addımın Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2021-ci ilin dekabr ayında Nyu York şəhərindən olan ravvin, ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayer ilə keçirilmiş görüşdə elan olunduğu diqqətə çatdırılır. Prezident İlham Əliyevin görüşdə, həmçinin paytaxt Bakıda yerləşən və şagirdlərinin sayı getdikcə artan "Chabad Ohr Avner" yəhudi məktəbinin inkişafına dövlət dəstəyi göstəriləcəyini bildirdiyi vurğulanır. Əlavə edilir ki, Azərbaycan Prezidenti bu qərarı ilə yəhudi xalqı ilə olan sıx münasibətlərə və Azərbaycandakı yəhudi icmasının dəstəklənməsinə dair aydın bir mesaj verib. Bu mesaj 10 milyon əhalisi olan ölkənin geosiyasi cəhətdən müxtəlif maraqların kəsişdiyi - Rusiya, İran və Türkiyə arasında gərgin bir regionda yerləşməsi baxımından çox təqdirəlayiqdir.

Məqalədə Azərbaycandakı yəhudi icmasının 47 min nəfərdən ibarət olduğu, bunlardan 37 mininin əsrlər boyu ölkəmizdə yaşayan sefard adlanan dağ yəhudilərindən, qalanlarının isə 19-cu əsrin ikinci yarısından etibarən ölkəmizdə yaşayan aşkenaz yəhudilərindən ibarət olduğu vurğulanır. Bildirilir ki, yəhudilər ölkəmizdə əsasən Bakı, Quba və Oğuz şəhərlərində yaşayırlar. Quba rayonunda yerləşən "Qırmızı Qəsəbə" adlanan ərazidə isə yaşayanların əksəriyyəti dağ yəhudilərindən ibarətdir. Onlar sünni, şiə və xristian qonşuları ilə birgə sülh və əmin-amanlıq şəraitində ömür sürürlər. Əlavə olunur ki, Azərbaycanda 8 sinaqoq, 2 yəhudi uşaq bağçası və 1500 məktəblinin təhsil aldığı 5 yəhudi məktəbi fəaliyyət göstərir. Vurğulanır ki, bir sıra Avropa ölkələrindən fərqli olaraq yəhudilərin Azərbaycandakı sözügedən dini və təhsil müəssisələri daimi polis nəzarətində fəaliyyət göstərmək məcburiyyətində deyillər.

Məqalədə həmçinin qeyd olunur ki, 2003-cü ildə əsaslı bərpa işlərindən sonra Bakıda aşkenaz yəhudilərinin sinaqoqunun, 2010-cu ildə isə 200 illik tarixə malik dağ yəhudiləri sinaqoqunun açılışı baş tutub. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bərpa işləri ilə bağlı layihəyə dövlət tərəfindən geniş dəstək verilib.

Müəllif Urs Unkauf Azərbaycanda yəhudi icmasının dərin kök salmasını və aktiv fəaliyyət göstərməsini ölkəmizin tarixində heç zaman yəhudilərə qarşı poqrom, məcburi köçürülmə və antisemit iğtişaşların baş verməməsi ilə əlaqələndirir.

Məqalə müəllifi bildirir ki, azərbaycanlı kimliyinin formalaşmasında ölkənin ərazi bütövlüyü - Qarabağ uğrunda mübarizə, o cümlədən Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın müdafiəsi mühüm yer tutur və burada da yəhudi izlərinə rast gəlinir. Belə ki, Azərbaycanın yəhudi əsilli Milli Qəhrəmanı Albert Aqarunov 1992-ci ildə Şuşanın müdafiəsi uğrunda həyatını itirib. Onun xatirəsi Azərbaycanda çoxsaylı yer və küçələrdə anılır.

# Azərbaycanla Çin arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparılıb

"Pekin 2022" Qış Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək məqsədilə Çində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov fevralın 5-də Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin Xarici Əlaqələr Şöbəsinin müdiri, nazir Sun Tao ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Pekin şəhərində keçirilən 24-cü Qış Olimpiya Oyunlarının açılış mərasiminin müvəffəqiyyətlə təşkil olunduğunu qeyd edən Əli Əhmədov Oyunlara uğurlar arzulayıb. "Pekin 2022" Qış Olimpiya Oyunlarının başlamasının Çin Yeni ili ilə eyni vaxta təsadüf etməsi ilə əlaqədar Əli Əhmədov həmsöhbətini, həmçinin bu bayram münasibətilə təbrik edib. O, açılış mərasimində ölkəmizin yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunmasını Azərbaycanın Çinlə dostluq və əməkdaşlıq əlaqələrinə verdiyi önəm, eləcə də Olimpiya hərəkatına göstərdiyi dəstək kimi qiymətləndirib.

Sonra Azərbaycanla Çin arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə formalaşmış uğurlu əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparılıb, ikitərəfli əlaqələrimizin bütün sahələrdə inkişafı üçün birgə səylərin bundan sonra da davam etdirilməsinin əhəmiyyətinə diqqət yönəldilib. Eyni zamanda, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında təşəkkül tapmış yüksəksəviyyəli əməkdaşlıq və fəal dialoqun ölkələrimiz arasında münasibətlərin inkişafında oynadığı rolun əhəmiyyəti qeyd olunaraq, partiyalararası əlaqələrin inkişaf etdirilməsi məqsədilə görülən işlərin yüksələn xətt üzrə davam etməsi, o cümlədən pandemiyadan sonrakı dövrdə hər iki partiyanın funksionerlərindən və gənclərdən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili istiqamətində addımların atılması razılaşdırılıb.

Görüş çərçivəsində, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib və Çin şirkətləri bu prosesdə daha yaxından iştiraka dəvət edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpini ölkəmizə rəsmi səfərə dəvət etdiyi bir daha məmnuniyyətlə xatırladılıb, bu səfərin pandemiyadan sonrakı dövrdə reallaşdırılacağına dair ümid ifadə edilib.

# MOK-un baş katibi "Pekin-2022"nin "Atletlər kəndi"ndə idmançılarımız üçün yaradılan şəraitlə tanış olub

Fevralın 5-də Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev "Pekin-2022"nin "Atletlər kəndi"ni ziyarət edib və burada idmançılarımız üçün yaradılan şəraitlə tanış olub.






AZƏRTAC xəbər verir ki, A.Əliyev "Pekin-2022"də ölkəmizi təmsil edən milli Olimpiya komandasına uğurlar arzulayıb.

Azərbaycan Qış Olimpiadasında iki idmançı ilə təmsil olunur. Bunlar fiqurlu konkisürənlər - Vladimir Litvintsev və Yekaterina Ryabovadır. V.Litvintsev fevralın 8-də və 10-da buz üzərinə çıxacaq. Y.Ryabova isə fevralın 15-də və 17-də bacarığını nümayiş etdirəcək.

"Pekin-2022" Qış Olimpiya Oyunlarında 91 ölkədən ümumilikdə 2800-dən çox idmançı mübarizə aparır. Olimpiadada atletlər idmanın 15 növü üzrə 109 dəst medal uğrunda qüvvələrini sınayırlar.

# Çinli tələbələr Qış Olimpiya Oyunlarında Azərbaycan idmançılarını dəstəkləyirlər

Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələr XXIV Qış Olimpiya Oyunlarında iştirak edən idmançılarımıza dəstək məqsədilə videoçarx hazırlayıblar.




AZƏRTAC xəbər verir ki, videoçarxda iki xalq arasında tarixi İpək yolu dövründə yaranmış dostluğun zamanın sınağından uğurla çıxdığı, bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd olunacağı vurğulanıb. Tələbələr XXIV Qış Olimpiya Oyunlarında Azərbaycan idmançılarına uğurlar arzulayıb, onların Pekindən Vətənə gözəl nəticələrlə qayıtmalarını diləyiblər.

Qeyd edək ki, Çinin Təhsil Nazirliyinin müvafiq qərarına əsasən, ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından olan Pekin Xarici Dillər Universitetində 2018-2019-cu tədris ilindən etibarən Azərbaycan dili üzrə kadrların hazırlanmasına başlanılıb. Bütün Asiya məkanında Azərbaycan dili ixtisası üzrə tələbə qəbulu və Azərbaycan dili kafedrası ilk dəfə PXDU-da təşkil olunub. Azərbaycan tərəfinin təşəbbüsü və dəstəyi ilə burada ötən illərdə dəfələrlə ölkəmizlə bağlı tədbirlər keçirilib, Azərbaycan həqiqətlərini, dilimizi və mədəniyyətimizi təbliğ edən layihələr icra olunub. Belə ki, "Nəsimi ili" çərçivəsində 2019-cu ildə universitetdə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan dili və ədəbiyyatı sərgisi də keçirilib. "Nizami Gəncəvi ili"ndə isə Azərbaycan dili kafedrasının həyata keçirdiyi "Nizami irsi" adlı elmi-ədəbi layihə çərçivəsində Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunan elmi jurnal çap olunub. Jurnala Azərbaycan dili ixtisası üzrə təhsil alan çinli tələbələrin 11 işi daxil edilib. Çinli gənclər 2020-ci ildə Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizəsinə dəstək məqsədilə videoçarx hazırlayıblar.

# Bir ailəyə ödənilən ünvanlı sosial yardımın orta aylıq məbləği 282 manata çatıb

Digər sosial ödənişlər kimi, ünvanlı dövlət sosial yardımlarının məbləğində də artım tempi davam edir.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 2022-ci ilin yanvar ayında bir ailəyə ödənilən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği ötən ilin müvafiq dövrünə nisbətən 17 faiz artaraq 282 manata çatıb.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi üçün ehtiyac meyarının həddi yeni qanunla 17,6 faiz və ya 30 manat artırılaraq 2022-ci il üçün 200 manat məbləğində müəyyən edilib. Bu, cari ildə ünvanlı dövlət sosial yardımın məbləğində də növbəti artıma imkan verəcək.

# «Cənub qaz dəhlizi» layihəsi başa çatıb, bizim işimiz isə davam edir»

## Layihə iştirakçıları Azərbaycanla enerji sahəsində uzunmüddətli strateji əməkdaşlıq niyyətindədirlər




*Əvvəli 1-ci səh.*

Hər dəfə olduğu kimi, Prezident İlham Əliyevin toplantıda iştirak etməsi tədbirin əhəmiyyətinə bir daha diqqət çəkir. Dövlət başçısı toplantıda çıxış edib və məşvərət şurası iclaslarının layihənin reallaşmasındakı rolunu vurğulayaraq deyib: “Məşvərət şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilmişdir. Hər il biz müəyyən yeni nailiyyətlər haqqında məlumat verirdik. Biz çox şadıq və özümüzü təbrik edə bilərik ki, bu dəfə biz “Cənub qaz dəhlizi”nin uğurla tamamlanması haqqında məlumat verə bilərik... Mən layihədə iştirak edən bütün tərəflərə minnətdarlığımı bildirmək istəyirəm, ilk növbədə, Avropa Komissiyasına. Avropa Komissiyası və Azərbaycan həmtəşkilatçı olaraq və bütün ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutlarının məşvərət şurasının iclasında səylərinin koordinatorları olaraq il ərzində bu layihənin həyata keçirilməsində çox mühüm rol oynamışdır”.

Xatırladaq ki, Avropa İttifaqı (Aİ) ilə enerji sahəsində əməkdaşlığa dair birgə bəyanatın imzalanmasından 10 ildən çox vaxt keçir. Aİ ilə Azərbaycan arasında bu sahədə həyata keçirilən əməkdaşlıq yeni mərhələyə qədəm qoyaraq “Cənub qaz dəhlizi” çərçivəsində davam etdirilir. Bu möhtəşəm layihə birgə əməkdaşlıq, tərəfdaşlıq və əlaqələndirmə şəraitində uğurla başa çatıb. 2020-ci ilin son günündə TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) işə düşməsi ilə “Cənub qaz dəhlizi” tam istifadəyə verilib.

Layihənin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına mavi yanacağın ixracını artıra bilib. Belə ki, keçən il ölkəmiz 19 milyard kubmetr təbii qaz ixrac edib. Türkiyəyə 8,5 milyard, İtaliyaya 7 milyard kubmetrə qədər qaz nəql olunub. Qalan həcm Gürcüstana, Yunanıstana və Bolqarıstana çatdırılıb. Öz qazpaylayıcı şəbəkəsini tamamlayandan sonra Albaniya da Azərbaycan qazı alacaq.

Prezident toplantıdakı çıxışında Azərbaycanın həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olduğunu qeyd edib: “Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb. İndi isə mən qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara baxanda görürəm ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər artır. Çünki biz hasilatı artırmağı planlaşdırırıq. Bu il biz keçən illə müqayisədə daha çox ixrac edəcəyik - böyük potensial var, xüsusilə indi, qaz bazarındakı vəziyyətin sabit olmamasını nəzərə alaraq. Həmçinin qiymətlər də çox dəyişkəndir”.

Eyni zamanda Azərbaycanın özünün də qaza tələbatı artır. Çünki əhalinin sayı getdikcə çoxalır, sənaye sahəsi genişlənir. Dövlət başçısı bunları qeyd etməklə onu da bildirib ki, öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız var. Həmçinin işğaldan azad edilmiş ərazilərimizi qazlaşdırmaq üçün tezliklə bizə əlavə həcmdə qaz lazım olacaq.

Prezident yeni uğurlar qazanılacağına, yeni nəticələr əldə olunacağına əminliyini bildirərək deyib ki, “Cənub qaz dəhlizi” layihəsi başa çatıb, bizim işimiz isə davam edir.

Diqqətçəkən faktdır ki, budəfəki toplantı geniş mövzulu olub. Yəni söhbət təkcə qaz hasilatı və ixracından getməyib. Elektrik enerjisi, o cümlədən “yaşıl enerji” məsələlərinə toxunulub. Beynəlxalq şirkətlərlə birlikdə Qarabağda və Şərqi Zəngəzurda “yaşıl enerji” zonası üçün artıq konseptual proqnoz hazırlandığı bildirilib.

Tezliklə Qobu qəsəbəsində 240 meqavat gücündə külək-elektrik stansiyası tikilib ərsəyə gələcək. Keçən ay Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti tərəfindən maliyyələşdiriləcək bu ilk bərpaolunan enerji mənbəyi layihəsinin təməli qoyulub. Hazırda Energetika Nazirliyi bərpaolunan enerjiyə investisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar aparır. Bu da təsadüfi deyil. Çünki ölkəmiz artıq uzun illərdir özünü etibarlı enerji mənbəyi kimi təsdiqləyib və hər növ enerji ixrac edir. O cümlədən ölkə daxilində olan və bizi bütün qonşularımızla birləşdirən elektrik xətləri şaxələndirilib. Bir sözlə, Azərbaycanın yaxınlığında ixrac bazarları, özü də artan ixrac bazarları var.

Təsadüfi deyil ki, Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson toplantıdakı çıxışında bu məsələyə də toxunub: “Bərpaolunan enerji mənbələrinə gəldikdə, onlar Avropanın uzunmüddətli planlarının təməl daşını təşkil edir. Bu, nəinki bizə dekarbonlaşmanı təmin etməyə, o cümlədən daha böyük bərpaolunan enerji mənbələrinin təmin edilməsinə yardım göstərəcək. Bizim bilik və təcrübəmiz, bu sahədə atdığımız addımlar tərəfdaşlarımıza açıqdır. Məsələn, Azərbaycandan başlayaq. Hörmətli cənab Prezident, mən maraqla onu öyrəndim ki, hazırda Xəzər dənizindəki bu potensial qiymətləndirilir. Yəni aydındır ki, həmçinin “Küləklər şəhəri” kimi tanınan Bakıda bu, Azərbaycan üçün çox böyük imkandır”.

Məşvərət şurasının 8-ci toplantısında həm çıxışlar, həm də plenar sessiyalar geniş mövzuları əhatə etmişdir. Bunlar “Cənub qaz dəhlizi”nin istismarına, eləcə də enenrji sistemlərinin uzunmüddətli planlarına aid məsələlər idi. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson “Azərbaycanda enerji sahəsində uzunmüddətli strateji əməkdaşlığa ehtiyac var” sözləri ilə sanki bütün tədbir iştirakçılarının fikrini ifadə etmişdir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# İlham Əliyevin enerji siyasətinin təntənəsi

## “Cənub qaz dəhlizi” Azərbaycanın qlobal müstəvidəki mövqelərini daha da möhkəmləndirib

*Əvvəli 1-ci səh.*

Tarixə nəzər salaq: 2011-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən birgə bəyanat imzalandı. 2012-ci il iyunun 27-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan TANAP-la bağlı müqavilə imzaladılar. 2014-cü il sentyabrın 20-də “Cənub qaz dəhlizi”nin təməli qoyuldu. 29 may 2018-ci il tarixdə Bakıda “Cənub qaz dəhlizi”nin, 12 iyun tarixdə isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəmərinin açılışı oldu. 30 iyun 2018-ci ildə ilk kommersiya qazının TANAP vasitəsilə Türkiyəyə göndərilməsinə başlanıldı. 30 noyabr 2019-cu ildə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi. 31 dekabr 2020-ci ildə isə Azərbaycanın təbii qazının Avropa bazarına tədarükünə başlanıldı.

Fevralın 4-də Bakıda keçirilən “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında Prezident İlham Əliyev layihənin tamamlanması ilə bağlı bildirib: “Milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni - XXI əsrin ən böyük layihələrindən biri olan “Cənub qaz dəhlizi”ni icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. “Cənub qaz dəhlizi” layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini vermişdir - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik”.

“Cənub qaz dəhlizi”nin başa çatdırılması Prezident İlham Əliyevin enerji siyasətinin təntənəsidir. Bu nəhəng enerji infastrukturu Azərbaycanın qlobal müstəvidəki mövqelərini daha da möhkəmləndirib.

### Avropa İttifaqının energetika məsələləri üzrə komissarı: “Cənub qaz dəhlizi” davamlı uğur hekayəsidir”

“Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı bir daha təsdiqlədi ki, Azərbaycanın təşəbbüsləri ilə ərsəyə gələn bu enerji dəhlizi onun bütün iştirakçıları tərəfindən yüksək dəyərləndirilir. Avropa İttifaqının komissarlarının, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksəksəviyyəli nümayəndələrinin toplantıda iştirak etmək üçün Bakıya gəlmələri bunu təsdiq etdi. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson “Cənub qaz dəhlizi”nin əhəmiyyətini qeyd edərək dedi: “Hamımız bu layihə zamanı dəf etdiyimiz çətinlikləri və maneələri yaxşı xatırlayırıq. Lakin bu gün hətta ən skeptik yanaşan insanlar onun baş tutmasına görə minnətdarlıq bildirir. Etibarlı, rəqabətcil və qəbul edilən qiyməti olan qaz Cənub-Şərqi Avropaya yol tapmaqdadır. Evlər qazla təchiz olunur, binalar isidilir və vətəndaşlar ehtiyac duyduğu enerjini alırlar. Artan enerji qiymətləri və sərt qaz təchizatı ilə dəhlizin rolu Avropa İttifaqı üçün heç vaxt görünməyən strateji əhəmiyyət kəsb edir. Fikrimizcə, “Cənub qaz dəhlizi” davamlı uğur hekayəsidir”.

Bir ildən də çoxdur ki, Azərbaycanın Xəzərdən hasil etdiyi təbii qaz Avropa bazarlarına çıxarılır. Bu səbəbdən “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısı artıq fərqli məzmunda keçirilir. Belə ki, hər il Bakıda toplaşarkən məşvərət şurasının iştirakçıları əsasən görülən işləri nəzərdən keçirir və “Cənub qaz dəhlizi” layihəsinin tamamlanması istiqamətində gələcək vəzifələri müzakirə edirdilər. Lakin məşvərət şurası çərçivəsində nazirlərin VIII toplantısında “Cənub qaz dəhlizi”nin yeni bazarlara, o cümlədən Balkan ölkələrinə, cənub-şərq ölkələrinə yönəlməsi, o cümlədən bərpaolunan enerjiyə keçidlə bağlı məsələlər müzakirə olundu.

2021-ci il və həmçinin bu ilin yanvar ayı ərzində ümumilikdə “Cənub qaz dəhlizi” vasitəsilə Gürcüstan, Türkiyə və Avropa istehlakçılarına 18,5 milyard kubmetrdən çox, Avropa ölkələri isə 8,9 milyard kubmetr Azərbaycan təbii qazı ilə təchiz olunub. Bu, onu göstərir ki, “Cənub qaz dəhlizi” Avropa ölkələrinin enerji təchizatında xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu amil isə dəhlizin Avropanın digər dövlətlərinə qədər genişləndirilməsini aktual edir.

“Cənub qaz dəhlizi”nin Cənub-Şərqi Avropa ölkələrinə gözəl töhfə olduğunu deyən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson məşvərət şurası çərçivəsində təşkil olunan mətbuat konfransında bununla bağlı deyib ki, yaxın gələcəkdə bu boru kəmərinin imkanlarını genişləndirmək düşünülür, xüsusilə, Qərbi Balkan istiqamətində genişləndirməklə bağlı müzakirələr aparılır.

Qlobal enerji müzakirələrinin əsas mövzularından biri də enerji keçididir. Enerji keçidi ən müasir texnologiyalar tətbiq edilməklə “yaşıl enerji”ni özündə ehtiva edir. Bu gün dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəflərindən biri “yaşıl enerji” keçidini sürətləndirməkdədir. Azərbaycanda isə bərpaolunan enerji üçün əlverişli münbit mənbələr var. Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasında bu ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi əsas vəzifələrdən biridir. Prezident İlham Əliyev “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında qeyd etdi ki, Qarabağ və Şərqi Zəngəzurda külək enerjisi potensialı təxminən 7200 meqavat, günəş enerjisi potensialı isə 2000 meqavatdan çoxdur. Ötən ay isə respublikamızda ilk böyük bərpaolunan enerji mənbəyi layihəsinin - 240 meqavat gücündə külək-elektrik stansiyasının təməli qoyulub.

Bütövlükdə, son illərdə respublikamızda elektrik enerjisi infrastrukturuna böyük həcmdə sərmayələr yatırılıb. Bütün bunlar onu göstərir ki, Azərbaycan həm də enerji keçidi ilə bağlı qlobal çağırışların uğurla reallaşdığı ölkələrdəndir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## “Cənub qaz dəhlizi” Qərbi Balkan regionunda yerləşən bütün dövlətlər üçün çox əhəmiyyətli layihədir”



*“İlk növbədə, Bakıda “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısının yüksək səviyyədə təşkil olunmasına görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Tədbir çərçivəsində bir çox məhsuldar müzakirələrimiz oldu. “Cənub qaz dəhlizi” Qərbi Balkan regionunda yerləşən bütün dövlətlər, o cümlədən Monteneqro üçün çox əhəmiyyətli layihədir. Bizim çox böyük enerji potensialımız var. Ölkəmizin zəngin enerji potensialı mövcuddur və müzakirələr zamanı biz qarşıdakı illərdə yeni bərpaolunan enerji mənbələrinin yaradılması məsələlərinə toxunduq”.*

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Monteneqronun Kapital İnvestisiyaları Nazirliyinin dövlət katibi Marko Perunoviç deyib.

Nazir bildirib ki, digər Avropa ölkələri kimi Monteneqro da “yaşıl enerji”yə keçidə yönəlib və yaxın gələcəkdə bərpaolunan enerji layihələri həyata keçirməyə hazırlaşır. Lakin sabit enerji sisteminə olan ehtiyacı qarşılamaq üçün ölkənin təbii qaza əsaslanan yeni enerji layihələrinə ehtiyacı var.

“Hələlik Monteneqronun təbii qaza çıxışı yoxdur. Lakin ümid edirik ki, bu, tezliklə mümkün olacaq. Ölkədə təbii qaz tədarükünün həyata keçirilməsinin əsas yollarından biri davamlı enerji istehsalı istiqamətində yeni layihə hazırlamaqdır. Bunun üçün isə “Cənub qaz dəhlizi”nin davamı olacaq İon-Adriatik boru kəmərinə ehtiyacımız var.

Monteneqro regiondan olan tərəfdaşlarla bu istiqamətdə danışıqlar aparır. Ümid edirik ki, hər hansı razılaşma əldə edilərsə, o zaman biz Avropadan olan tərəfdaşlarımızdan, o cümlədən TAP və “Cənub qaz dəhlizi”nin iştirakçısı olan ölkələrdən də dəstək ala bilərik. Biz inanırıq ki, tezliklə həmin layihəni uğurla həyata keçirəcəyik və davamlı enerji istehsalını təmin etmiş olacağıq”, - deyə Marko Perunoviç vurğulayıb.

## “Cənub qaz dəhlizi” layihəsi bütün Avropa İttifaqı ölkələri üçün əhəmiyyətlidir”



“Azərbaycan ilə Bolqarıstan arasında hər zaman yaxşı münasibətlər olub. İnanıram ki, bu münasibətlər daha da inkişaf edəcək və möhkəmlənəcək”.

AZƏRTAC xəbər verir ki, bu barədə Bolqarıstanın energetika naziri Aleksandr Nikolov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, ölkələrimiz arasında tranzit sahəsində bir sıra məsələlər müzakirə olunmalıdır.

“Bakıda Prezident İlham Əliyevin də iştirakı ilə keçirilən “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısının yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə və bu tədbirə bizi dəvət edən energetika naziri Pərviz Şahbazova minnətdarıq. Energetika naziri ilə görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi apardıq. Bütün görüşlər məhsuldar keçdi və biz nazirlə gələcəkdə görəcəyimiz işləri müzakirə etdik. Həmçinin görüş zamanı mən “yaşıl enerji”yə keçid və bərpaolunan enerji sahəsi ilə bağlı mümkün layihələrin Bolqarıstan dövləti tərəfindən nəzərdən keçiriləcəyini bildirdim”, - deyə Aleksandr Nikolov vurğulayıb.

A.Nikolov qeyd edib ki, hazırda “Cənub qaz dəhlizi” daha da genişlənir: “Biz Avropa dövlətlərindən olan tərəfdaşlarımızla birgə inanırıq ki, təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsi və enerji təhlükəsizliyinin artırılması məsələlərində “Cənub qaz dəhlizi” layihəsi təkcə cənub-şərqi Avropa regionu üçün deyil, həmçinin bütün Avropa İttifaqı ölkələri üçün çox əhəmiyyətlidir. Bundan əlavə, Bolqarıstan və Serbiya arasında interkonnektorun tikintisi layihəsi ilə bağlı yeni imkanlar axtarışındayıq”.

Azərbaycanın Avropa İttifaqı (Aİ) səviyyəsindəki bu əməkdaşlığının getdikcə daha da inkişaf edəcəyini deyən bolqarıstanlı nazir diqqətə çatdırıb ki, Aİ-nin Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliverin və Aİ-nin energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun Bakıda keçirilən bu mötəbər tədbirdə iştirakı da bunu bir daha sübut edir.

## “30 il ərzində müstəqil Ukrayna ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb”



Otuz il ərzində müstəqil Ukrayna ilə Azərbaycan arasında münasibətlər nəinki hərtərəfli inkişaf edib, möhkəmlənib, həm də çox yüksək strateji tərəfdaşlıq və yaxın dostluq səviyyəsinə çatıb.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan Parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi barədə danışarkən söyləyib.

Deputat vurğulayıb ki, Ukrayna Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini həmişə dəstəklədiyi kimi, Azərbaycan da sərhədlərimizin toxunulmazlığı məsələsində Ukraynanın yanında olub.

“Beynəlxalq arenada biz həmişə vahid cəbhədə yürümüşük. Ümid edirəm ki, bu, gələcəkdə də belə davam edəcək. Çünki bizim ümumi maraqlarımız var, onların həyata keçirilməsi birgə səylər tələb edir”, - deyə Kolyux əlavə edib.

Deputat qeyd edib ki, Kiyev və Bakı otuzillik əməkdaşlıq dövründə Ukrayna və Azərbaycan xalqları arasında siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl olub. Təkcə son bir-iki ildə ölkələrimiz arasında müxtəlif istiqamətlərdə - kənd təsərrüfatı, energetika, ticarət, infrastruktur, texniki əməkdaşlıq sahələrində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən çox sayda saziş və memorandum imzalanıb.

2021-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 1 milyard dollara yaxın olub ki, bu da 2014-cü ildən bəri ən yüksək göstəricidir. Ölkələrimiz 2024-cü ilə qədər ticarət dövriyyəsini iki dəfə artırmağı hədəfləyir, bunun üçün bütün siyasi və iqtisadi şərait yaradılır.

Qeyd edək ki, Azərbaycanla Ukrayna arasında diplomatik münasibətlər 1992-ci il fevralın 6-da qurulub.














# Naxçıvan təhsilin inkişafında liderdir

## Muxtar respublikanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında davamlı şəkildə necə rekordçu olurlar?













*Əvvəli 1-ci səh.*

Bu qayğı Prezident İlham Əliyev tərəifndən də davam etdirilib. Dəfələrlə olduğu, hər dəfə də mühüm infrastruktur açılışlarını etdiyi universitet barədə dövlət başçısının bu sözləri xüsusilə diqqət çəkir: “Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur. Bu da onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir. Burada görüləcək işlər, yeni fakültələrin açılması və gələcək planlar, əlbəttə, imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevriləcəkdir”.

Prezident NDU qarşısında konkret məqsəd müəyyənləşdirmişdi və 15 il öncə elan edilən bu hədəf indi gerçəyə çevrilir. Bu mövzuda universitetin rektoru Elbrus İsayev böyük şövqlə, qürurla danışır. Ölkənin ən gənc rektoru olan Elbrus müəllim universitetin sabahı ilə bağlı aydın vizyona, prinsipial mövqeyə, ən əsası isə əminliyə sahibdir. Onunla söhbətləşdikcə, əməl hesabatını dinlədikcə onun öz fəaliyyətində müasir çağırışlarla mükəmməl ənənələri uğurla birləşdirdiyini, məsuliyyət daşıdığı sahəni nəticəsiz, populist eksperimentlərdən qoruyaraq düzgün məcrada inkişaf etdirdiyini və etimada bəslədiyi sədaqəti aydın görmək olur. Maraqlı məqam odur ki, rektorun tələbəlikdən etibarən həyatı məhz bu universitetlə bağlıdır. Burada bakalavr, magistr, doktorantura təhsili alıb, tələbəlik illərində universitet Gənclər Təşkilatının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifələrində çalışıb. Müəllimi, baş müəllimi, dekanı olduğu universitetə rəhbərlik 3 il öncə ona həvalə edilib. Çoxsaylı təltif, mükafata sahibdir, elə ən sonuncusunu xatırladaq: “2021-ci ilin ən yaxşı rektoru” sosial sorğusunun qalibi olub.

Rektorla bərabər universitetin korpuslarını gəzirik. Onun “universitet şəhərciyi” ifadəsi ilə razılaşmıram. Bura şəhərcik deyil, elə şəhərdir - müasir gənclər şəhəri, modern təhsil şəhəri! 108 hektarlıq ərazidə 13 tədris korpusundan əlavə, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, olimpiya idman mərkəzi, Tələbə evi, Qonaq evi, 2 stadion və digər çoxsaylı təhsil-sosial infrastrukturları yerləşir. Hər biri də 4-6 mərtəbəli, tam təmirli, ən son nəsil avadanlıqlarla təchiz edilmiş, zövqlə tikilmiş binalar...

Əslində, bütün korpuslarda olmaq üçün heç bir gün də kifayət etməz. Həyat burada hər addımda qaynayır. Hazırda universitetdə 451 professor-müəllim heyəti çalışır ki, onların da arasında Milli Elmlər Akademiyasının müxbir üzvü, elmlər doktoru, professor, fəlsəfə doktoru, Xalq rəssamı, Əməkdar elm xadimi, Əməkdar müəllim, Əməkdar artist, Əməkdar mədəniyyət işçisi və digər yüksək elmi-ictimai statusu şərəflə daşıyanlar var. 12 fakültədə bakalavriat səviyyəsi üzrə 70 ixtisas, magistraturada 82 ixtisaslaşma, doktoranturada 52 və rezidentura üzrə 32 ixtisasda ümumilikdə 8 minə yaxın tələbə təhsil alır. 13 ixtisasda 516 tələbəyə təhsil verən Musiqi kolleci də ötən il universitetin tabeliyinə verilib. Rektor növbəti iki il ərzində tələbə sayının 10 min nəfəri keçəcəyinə əmindir.

Xarici tələbələrlə qarşılaşırıq. Elbrus İsayev məlumat verir ki, ümumilikdə burada bakalavr və magistratura səviyyəsində 9 ölkədən 1493 tələbə təhsil alır. Bu rəqəm indi ölkə üzrə rekord göstəricidir. Deməli, illər boyu muxtar respublikada minlərlə xarici tələbə təhsil alıb. Tələbələrin hansı ölkələrdən gəlmələri ilə maraqlanırıq. Türkiyə, İran, Rusiya, Pakistan, Özbəkistan və digərləri sırasında dünyanın ən modern təhsil modellərindən birinə malik Cənubi Koreyadan da tələbə olduğunu eşidəndə təəccüblənirik. Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə “Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsini həyata keçirən NDU-nun ABŞ-dan İngiltərəyə, Çindən Rusiyaya, Fransadan Misirə, Almaniyadan Pakistana, İspaniyadan İrana qədər, bir sözlə, dünyanın 50-dən çox ölkəsinin 100-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq əlaqələri var.

Maraqlıdır, axı o uzaq ölkələrdən gələn tələbə, özü də minlərlə tələbə niyə məhz Naxçıvanı seçir? Rektor bunun səbəblərini izah edir: həm normal yaşam üçün tələb olunan bölgənin yüksək inkişaf və sabitlik göstəriciləri, həm təhsil nailiyyətləri, həm də burada gördükləri yüksək qayğı, himayə, qonaqpərvərlik... Digər səbəblərin də hər biri əsaslıdır. Məsələn, əcnəbi tələbələrə davamlı olaraq ərzaq payı ayrılır. Pandemiya dövründə isə muxtar respublika rəhbərliyi tərəfindən xarici tələbələrə maddi dəstək göstərilir, soyuducuları boş qalmır. Bu mənəvi dəyərlər kontekstində NDU-nun xaricdə əsas təbliğatını məhz burada təhsil almış, indi də təhsil alan tələbələr aparır və həmvətənlərini universitetə cəlb edirlər.

Xatırladaq ki, NDU-da təhsil alan yerli tələbələrin coğrafiyası Azərbaycanın bütün bölgələrini əhatə edir.

### Populist planlar yox, məhz real nəticəli innovasiyalar var

Avropa Rektorlar Klubu tərəfindən “Minilliyin universiteti” adına layiq görülən NDU yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə Azərbaycan ali məktəblərinin reytinq cədvəlində də iki dəfə birinci yerə sahib olub.

Universitetin bir nailiyyəti də tələbələrin təkmil təcrübə keçməsini və nəticədə sonradan rahat iş tapa bilməsini təmin edəcək layihənin artıq üç ildir icra olunmasıdır. Muxtar Respublika Ali Məclisi Sədrinin müəllifi olduğu bu təşəbbüs əsasında universitetdə bakalavriat səviyyəsi üzrə 70 ixtisas müvafiq olaraq 34 dövlət təşkilatına, subbakalavriat səviyyəsi üzrə isə 13 ixtisas 4 dövlət təşkilatına hamiliyə verilib. Dövlət strukturlarının rəhbərləri, nazirlər tələbələrlə mütəmadi görüşür, təmsilçiləri onlara mühazirələr oxuyur, təcrübə prosesinin keyfiyyətli gedişini təmin edir, nəticədə fərqlənən tələbələr işlə təmin olunur. Rektorun təbirincə desək, ixtisasların dövlət qurumlarına hamiliyə verilməsi kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır.

Bu, Azərbaycan təhsilində bir ilkdir, amma Naxçıvan miqyası üçün yeganə ilk deyil... Ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi istifadəyə verilib. Elektron universitetin fəaliyyətə başlaması isə Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdəndir. Elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə və digər təhsilin idarəedilməsi modellərini özündə birləşdirən Elektron universitet təhsilin elektron vasitələrlə həyata keçirilməsi ilə yanaşı, elektron imtahanları da əhatə edir.

İnnovasiyalar, dövrün qlobal trendlərinə qoşulma, yeni çağırışlara uyğun mütəxəssis yetişdirmə müasir təhsilin əsas faktorlarıdır. Ancaq ölkə miyqasında bu sahədə hələ də yetərincə səmərəli nəticələr əldə etməyən ali məktəblər var. Bəs NDU-da bu sahədə vəziyyət necədir?

Rektor Elbrus İsayev bu istiqamətdə həyata keçirilən çoxsaylı layihə, onların nəticələrindən danışır. Məsələn, Ali Məclis Sədrinin təşəbbüsü ilə yaradılan “Startap Naxçıvan” hərəkatı universitetin müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına xidmət edir. Universitetdə gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün yaradılan “İnnovasiya mərkəzi” və “İnnovasiya laboratoriyası” tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, maarifləndirici treninqlərin keçirilməsini təmin edir. Eyni zamanda startap hərəkatına qoşulmanı optimallaşdırmaq və operativ əlaqələrin qurulması məqsədilə “İdeya bankı” fəaliyyət göstərir. Hazırda 20-yə yaxın startap layihəsi icra olunur.

Tədris prosesində İKT-nin tətbiqi sahəsində professor-müəllim heyətinin fənlər üzrə mühazirə mətnləri elektronlaşdırılıb və ixtisaslar üzrə tələbələrin şəxsi kabinetlərinə yerləşdirilib. Bu isə etiraf edək ki, ölkə ali məktəblərində rastlanan azsaylı faktlardandır və daim tələbələrin haqlı narazılığını yaradır. İmtahan sessiyasından əvvəl tələbələrin imtahanaqədərki balları şəxsi kabinetlərinə yüklənilir. Ötən il elektron test üsulu ilə 1141 imtahan keçirilib. Ali təhsil ocağının “E-cədvəl” mobil tətbiqi Azərbaycanın milli internet mükafatına layiq görülüb. Rəqəmsal ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi məqsədilə tələbələrə yeni nəsil smart tələbə kartları verilib.

Tikintisi davam edən nəhəng kompleksin qarşısındayıq. Elbrus İsayev “Bura gələcəkdə yalnız universitetimizin və muxtar respublikanın deyil, bütün Azərbaycanın ən müasir elmi-texnoloji mərkəzlərindən olacaq” deyir. Rektorun mütləq əminliklə gələcək təyinatını müəyyənləşdirdiyi məkanla maraqlanırıq. Bura Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkı olacaq.

Bu infrastrukturu Ali Məclisin Sədri Vasif Talıbovun növbəti innovasiya təşəbbüsü kimi səciyyələndirən rektor qeyd edir ki, ümumiyyətlə, dünyada az sayda universitetdə texnopark vardır. Bura universitetin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığı kimi məsələlərə böyük təsir imkanları yaradacaq. 5 mərtəbəli Texnologiyalar Parkı universitetin 43 ixtisasının fəaliyyət sahəsinə daxil olacaq.

Layihəyə nəzər salırıq. Nano araşdırmalar, biotexnologiyalar, prototip mərkəzləri, proqramlaşdırma və avtomatlaşdırma, texnoservis, innovasiya, layihələrin əlaqələndirilməsi, informasiya texnologiyaları, süni intellekt elmi-tədqiqat mərkəzləri, incəsənət, dizayn və memarlıq layihələri xidməti, biznes inkubatoru, ideya bankı, energetika, startap mərkəzləri, nəbatət bağı, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, meliorasiya, arıçılıq sahələri, biopark, texnopark binaları... Bəli, bunlar Naxçıvan Dövlət Universitetində mövcud olacaq!

### Qədim alimlər yurdunda modern elmi yeniliklər

Universitet ərazisində hərbi geyimli gənclərlə qarşılaşırıq. Məlum olur ki, onlar Tibb fakültəsində ötən ildən fəaliyyətə başlayan “Hərbi həkim” ixtisası üzrə təhsil alan tələbələrdir. Tibb fakültəsində olarkən isə maraqlı məqamla rastlaşırıq. Əczaçılıq və biokimya laboratoriyalarında müəllimlərlə yanaşı, tələbələr də iş başında idi. Yeni dərman vasitələri üzrə araşdırmalar aparılırdı. Məlum oldu ki, fakültənin dekanı, dosent Elsevər Əsədovun “Arı vərəmumu əsaslı oral və nazal sprey” layihəsi artıq patent üçün Əqli Mülkiyyət üzrə Dövlət Agentliyinə göndərilib və ilkin mərhələdən keçib. Qeyd edək ki, bu dərman vasitəsi universitetin müəllim və tələbələri ilə yanaşı, artıq ətrafda da geniş populyarlıq qazanıb və pandemiyanın fəsadlarından qorunmaq üçün təsirli sprey kimi qəbul olunur.

Bəs NDU-da - bu gənclər şəhərində tələbələrin dərsdənkənar asudə vaxtı necə keçir? Əvvəl yataqxanadan başlayaq. Tam təminatlı, müasir təchizatlı, yüksək təmirli, 2 korpuslu, ən əsası, bəlkə də simvolik sayılan ödənişli yataqxana 500-ə yaxın tələbənin isti ocağına, evinə çevrilib. Yaxınlıqdakı üç mərtəbəli Sosial Xidmət Mərkəzində isə tələbənin cibinə uyğun kafelər, istirahət, sərgi, mədəniyyət məkanları günboyu tələbələrin istifadəsindədir. Universitetin öz xəstəxanası da var. 3 mərtəbəli korpusda cərrahiyyə bloku, reanimasiya palataları, elektrokardioqrafiya, ultrasəs, rentgen və müayinə otaqları, klinik laboratoriya, aptek, 3 auditoriya, oftalmoloji, stomatoloji kabinələr və digər lazımi mükəmməl tibbi infrastruktur yaradılıb. Tələbə və müəlliflərin ixtiyarında təmənnasız olan bu xəstəxana həm də Tibb fakültəsinin təcrübə məkanıdır.

Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Turizm Assosiasiyası, Tələbə İnformasiya Mərkəzi, tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşlərinin, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkanlar yaradır. Universitetin gənc müəllimi Əziz Qasımovun bu günlərdə gənclər siyasəti və gənclərlə iş sahəsi üzrə fərqləndiyinə görə Prezident mükafatına layiq görülməsi isə həm də elə NDU-ya dövlət başçısının növbəti etimadıdır. Qeyd edək ki, Universitetin Tələbə Gənclər Təşkilatı da “İlin ən yaxşı Tələbə Gənclər Təşkilatı” nominasiyası üzrə mükafata layiq görülüb.

100 mindən artıq kitabxana fondu olan Naxçıvan Dövlət Universitetində ən yüksək kampus simsiz internet şəbəkəsindən istifadə olunur. Burada 3 internet mərkəzi, Media mərkəzi, Universitet televiziyası, radiosu, nəşriyyatı, “Elmi əsərlər” jurnalı, “Yeni fikir” qəzeti və bir neçə muzey fəaliyyət göstərir.

NDU müasir təhsil mərkəzi olmaqla yanaşı, həm də mükəmməl elm məkanı kimi formalaşır. Bu isə universitetin əsas fəaliyyət göstəricilərindən, mühüm qiymətləndirmə əmsallarından biri olmaqla yanaşı, daim “alimlər yurdu” kimi səciyyələnən Naxçıvanın nüfuzuna da böyük töhfədir.

Yeri gəlmişkən, bu ənənənin yaşaması üçün Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi də xüsusi səy göstərir. 20 il öncə fəaliyyətə başlayan bölmədə 6 elmi tədqiqat institutu birləşib. Burada çalışan 248 əməkdaş, o cümlədən 93 elmi işçi sırasında iki akademik, 4 müxbir üzvü, 5 elmlər doktoru, 50 fəlsəfə doktoru var. İndiyədək dissertasiya şuralarında 17 elmlər, 98 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub. Əməkdaşlarının 252 monoqrafiyası, 235 kitabı, çoxsaylı metodik və dərs vəsaiti, elmi məqalələri, atlas və xəritələri çap olunan bölmənin alimləri tərəfindən 2 cilddə “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan abidələri ensiklopediyası”, “Naxçıvan tarixi atlası”, 3 cilddə “Naxçıvan tarixi”, “Naxçıvan teatrının salnaməsi”, 3 cilddə “Naxçıvanın folkloru antologiyası”, “Dədə Qorqud yurdu-Naxçıvan” tarixi-coğrafi və etnoqrafik atlası, 2 cilddə Naxçıvan Muxtar Respublikasının “Qırmızı kitabı”, 2 cilddə “Naxçıvan coğrafiyası” və digər fundamental nəşrlər işıq üzü görüb.

### Prezident qayğısının əməli nəticələri

Blokadanın məhrumiyyətləri altında fəaliyyət göstərən 55 yaşlı universitetin hələ çox kiçik qisminə toxunduğumuz genişmiqyaslı nailiyyətləri ümumilikdə Naxçıvanda təhsilə, elmə olan qayğının və himayənin təcəssümüdür. Naxçıvan ənənələr diyarıdır, burada hər bir bucaqda hansısa tarixi ənənənin nişanına rastlamaq, hər bir evdə ənənələrin yaşadıldığına şahid olmaq mümkündür. Bu ənənələrin ən mükəmməllərindən biri də elə qeyd etdiyimiz təhsilə və elmə olan bağlılıqdır.

Naxçıvanda ən ucqar yaşayış məntəqəsində, ən hündür dağ kəndində belə iki-üç mərtəbəli, tam isidilən, dərslikdən kompüterə, idman zalından laboratoriyalara qədər müasir təhsil üçün tələb olunan bütün vasitələrlə təmin olunan orta məktəblər tikilib. Hələ kəndlərdə üçmərtəbəli musiqi məktəblərini görmək də böyük təəccüb yaradır.

Prezident İlham Əliyevin Naxçıvanda açılış lentini kəsdiyi onlarca orta məktəb necə modern və təminatlıdırsa, dağ kəndlərindəki yüzlərlə digər məktəb də onlardan əsla və əsla fərqlənmir!

Son onilliklərdə muxtar respublikada 200-dən artıq məktəb binası istifadəyə verilib, hamısı da ən müasir səviyyədə! Muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan 53 mindən çox şagirdin təhsili ilə 7257 müəllim məşğul olur. 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılan təhsil müəssisələrinin hamısında sürətli internetə çıxış var. 22 mindən çox şagird 103 ümumtəhsil məktəbində STEAM təhsilinə cəlb olunub. İstedadı ilə fərqlənən şagirdlərin adı gənc istedadların “Qızıl kitabı”na yazılır və onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünü alırlar.

Bu yüksəksəviyyəli və təchizatlı məktəb infrastrukturları Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi nəzarəti, birbaşa himayəsi, göstərişi əsasında inşa olunub, Ali Məclis Sədri Vasif Talıbovun fədakarlığı, zəhməti ilə ərsəyə gəlib. Amma Azərbaycan reallığında bir həqiqət də var: əsas məktəbin vizual göstəricisi deyil, mühüm olan oradakı təhsilin keyfiyyətidir!

Düzgün istiqamət, mükəmməl təcrübə və vicdanlı müəllim hesabına çıraq işığında onilliklər boyu əsl ziyalılar yetişib, akademiklərin təhsil yolu uçuq məktəb binalarından başlayıb! Təhsil - sabahımızdır, təhsilin bugünkü durumu sabahımızın necə olacağını elə indidən müəyyənləşdirir! Təhsilin keyfiyyət göstəricisi kimi yəqin, onlarca amil var. Bəs biz nəyə, hansına istinad edək?

İndi əlacsız valideynlər, on minlərlə ailə ümidi, yəni normal təhsili məktəbdə yox, ondan kənarda axtarır. Ən böyük gerçəklik isə “repetitor məktəbi”nin orta məktəbdən daha səmərəli, daha əhəmiyyətli nəticə verən olmasıdır! Naxçıvan timsalında isə biz fərqli, ürəkaçan, təsəlli verən nümunəni görürük. Təhsilin keyfiyyət nəticələrini sadə insanlar birmənalı olaraq, ali məktəblərə qəbulun nəticə statistikasında axtarır ki, bu göstəricidə də əsas payı, əlbəttə, “repetitor məktəbi” tutur. Naxçıvanda isə repetitorluq sadəcə yoxdur! Dil, sənət, ilkin təlimləri öyrədən kurslar və təmənnasız, yalnız öz 3-4 geri qalan şagirdinə gücləndirici əlavə dərsdənkənar vaxt ayıran vicdanlı müəllimləri kənara qoysaq, yalnız və yalnız məktəb var!

### Təcrübə və məsuliyyət - islahatların uğur rəhni

Ötən tədris ilinin qəbul statistikasının monitorinqini Dövlət İmtahan Mərkəzi (DİM) hələ ki, yekunlaşdırmayıb. Sadəcə o məlumdur ki, 2021-ci ildə muxtar respublika məzunlarının ali təhsil müəssisələrinə və orta ixtisas məktəblərinə qəbul göstəricisi 73 faiz təşkil edib. 261 məzun 500-dən yuxarı bal toplayıb, 3-ü Prezident təqaüdünə layiq görülüb.

Amma öncəki illərin rəqəmlərini DİM elan edib. Kiçik araşdırma apardıq. Məsələn, 2020-ci ildə I mərhələ üzrə buraxılış imtahanlarında bölgələr üzrə ən yaxşı göstərici, yəni lider mövqe Naxçıvan Muxtar Respublikasına - Ordubada məxsusdur. II mərhələdə isə rayonlar üzrə təsnifatların ilk onluğunda muxtar respublikanın 4 rayonu var! Hətta paytaxt Bakının bura düşmədiyi, ilk yerində isə ən məşhur dövlət və özəl liseylərin toplusunun yerləşdiyi siyahıda ikinci yeri Ordubad, 5-ci yeri Naxçıvan şəhəri, 7-ci yeri Kəngərli, 9-cu yeri Şahbuz tutur. Yüksək bal toplayan tələbələr siyahısında ilk beşlikdə isə muxtar respublika 2 yaşayış məntəqəsi ilə təmsil olunur: Naxçıvan şəhəri və Şahbuz. 2019-cu ildə də abituriyentlərin qəbul göstəricilərinə görə ilk 15-likdə muxtar respublika 4 yaşayış məntəqəsi ilə təmsil olunub: Şahbuz, Kəngərli, Ordubad və Naxçıvan şəhəri (paytaxt Bakıdan bir pillə öndə).

Yaxud ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələrinə 2020-ci il qəbulunda qruplar üzrə orta bal göstəricilərində də Naxçıvan Dövlət Universiteti öndədir. II qrupda NDU görün kimləri üstələyir: BDU, Dövlət Neft və Sənaye, Texniki, Memarlıq və İnşaat, Pedaqoji, Dillər, Slavyan, Bakı mühəndislik, Mədəniyyət və İncəsənət, Turizm və Menecment və digər bütün bölgə universitetlərini... III qrupda yenə də paytaxtın xeyli, bölgələrin isə bütün ali məktəblərini gerirdə qoyan Naxçıvan Dövlət Universiteti IV qrupda Tibb Universitetindən sonra ikinci nəticə ilə 17 ali məktəbdən öndədir. Ümumilikdə isə NDU qəbul balına görə 42 ali məktəb arasında 12-ci mövqedə olub.

Unutmayaq, Dövlət İmtahan Mərkəzinin real rəqəmləri, hesabatı təhsilin keyfiyyəti barədə mülahizə yürütməyə, rəy söyləməyə əsas verən hələ ki, yeganə istinaddır və bunun timsalında ölkə təhsilinin, o cümlədən Naxçıvan təhsilinin vəziyyətini düzgün dəyərləndirə bilərik. Ancaq bir məqam da var: “Ordubad, Şahbuz, Kəngərli və digər rayon məktəbləri ölkə üzrə öndədir” deyib, mövzunun üstündən sakitliklə keçməyək. Blokadanın ağır və çətin məhrumiyyətlərini, dağ kəndlərinin spesifik problemlərini, təbiətin bu bölgə üçün davamlı fəsadlarını və digər onlarca obyektiv amili nəzərə alaraq, qazanılan nailiyyətə qiymət verək.

Bu, qəhrəmanlıqdır, səmimi vətənpərvərlikdir, əsl Azərbaycansevərlikdir, sabahımıza ən dəyərli töhfədir!..

Naxçıvanda Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın təhsillə bağlı tələblərinin, hədəflərinin, məqsədlərinin gerçəkləşməsinə vicdanla, məsuliyyətlə yanaşırlar və bunu vətəndaşlıq borcu kimi qəbul edirlər!

*Buna görə də Prezident İlham Əliyev Naxçıvanı inkişafın bütün istiqamətləri üzrə Azərbaycanın lider və rekordsmen bölgəsi elan edib!*

*Təhsil səviyyəsini Azərbaycan miqyasında lider və rekordsmen mövqeyinə çıxardan Naxçıvanın indi Prezident İlham Əliyev qarşısında bir öhdəliyi də var: bu nailiyyətləri qlobal məkana keçirtmək. Bunu da bacaracaqlar!..*

***İxtiyar HÜSEYNLİ,***
***“Azərbaycan”***

*Bakı-Naxçıvan-Bakı*

# İdxaldan asılılığın azaldılması yolu yerli istehsalın artırılmasından keçir

Pandemiya dünya əhalisini bir sıra sosial çətinliklə üzüzə qoyub. Belə vəziyyət, ilk növbədə, insanların sosial rifahına və alıcılıq qabiliyyətinə təsir göstərib.

Koronanın tüğyan etdiyi dövrdə hətta dünyanın ən inkişaf etmiş və qlobal iqtisadiyyatın önündə gedən Amerika Birləşmiş Ştatlarında 20 milyon insan sosial müavinət almaq barədə dövlətə müraciət etmişdi.

Hazırda isə ölkələr həm də pandemiyanın fəsadı olan ərzaq bahalaşması ilə yaranan sosial gərginliyin aradan qaldırılması üçün müxtəlif sabitləşdirici tədbirlər görürlər ki, bu da bir daha dünyada ərzaq təhlükəsizliyinin nə qədər önəmli məsələ olduğunu ortaya qoyur.

Azərbaycanda da bu məsələ həmişə, o cümlədən pandemiya dövründə diqqət mərkəzində olub. Elə son illər dövlətin ayırdığı güzəştli kreditlərin 80 faizə qədərinin regionlarda fəaliyyət göstərən sahibkarlara verilməsinin əsas səbəblərindən biri də budur. Bölgələrdə çalışan sahibkarların çoxu isə kənd təsərrüfatı ilə məşğul olur. Deməli, fermerlər dövlətin ayırdığı güzəştli kreditlərdən ən çox faydalanan təbəqədir.

Prezident İlham Əliyev də aqrar sektorun inkişafına və ərzaq təhlükəsizliyinin təminatına xüsusi diqqət yetirir. Bunun sayəsində ölkəmizdə aqrar sektorda məhsul istehsalı ildən-ilə artır. Son 15 ildə Azərbaycanda təkcə meyvə və üzüm istehsalı 2 dəfə artmışdır. Artım və yüksək məhsuldarlıq həmçinin tərəvəzçilikdə müşahidə olunur. Pambıqçılığa göstərilən diqqət də bəhrəsini verir. Qeyri-neft ixracında pambıq satışının həcmi ildən-ilə artmaqda davam edir.

Dövlət başçısı cari il yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibəsində aqrar sektorda görülən işlər və əldə edilən uğurlar barədə demişdir: “Eyni zamanda biz özümüzü əsas ərzaq məhsulları ilə təmin etmək üçün praktiki addımlar atdıq. Məsələn, bu gün mal ətinə əgər baxsaq, biz özümüzü təqribən 90 faiz səviyyəsində təmin edirik, qoyun əti ilə 100 faiz, Azərbaycan heç vaxt süd istehsal etmirdi və bizdə ənənəvi olaraq mal-qaranın cinsi südçülük üçün əlverişli deyildi. Ona görə biz cins mal-qaranın alınmasına böyük vəsait xərclədik və bu gün Azərbaycanda əgər 1 milyondan çox iribuynyzlu mal-qara varsa, onun artıq 70 mini cins malqaradır”.

Dövlətin bu sahəyə verdiyi dəstəyin sayəsində hazırda ölkəmiz daxili istehsal hesabına əhalinin süd və toyuq əti ilə təmin edilməsini 80 faiz səviyyəsinə çatdıra bilib. Belə yüksək nailiyyət sovetlər dönəmində heç vaxt əldə edilməmişdir.

Ölkədə daxili tələbatın ödənilməsində ən böyük problem taxılla bağlıdır. Biz ildə təqribən 3,3-3,4 milyon ton buğda istehlak edirik. Ölkəmizdə isə təxminən cəmi 2 milyon ton buğda istehsal edilir. Daxili tələbatı tam ödəmək üçün qalanı idxal olunur. Bundan, yəni idxaldan xilas olmaq üçün yüksək məhsuldarlığa nail olan iri fermer təsərrüfatlarının sayını artırmaq, eləcə də kiçik fermer təsərrüfatlarına dövlət dəstəyini gücləndirmək lazımdır. Digər yol hazırda dünyada geniş istifadə edilən qayda ilə, yəni başqa ölkələrdə taxılçılıq üçün məqbul olan münbit torpaqları icarəyə götürüb, orada məhsul yetişdirib ölkəyə gətirməkdir.

Verilən dövlət dəstəyi sayəsində ötən il də aqrar sektor üzrə məhsul istehsalında artım müşahidə edilib. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 9 milyard 163,4 milyon manat təşkil etmişdir. Onun 4 milyard 652,4 milyon manatı heyvandarlıq, 4 milyard 511 milyon manatı isə bitkiçilik məhsullarının payına düşmüşdür. 2020-ci illə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 3,4, o cümlədən heyvandarlıq üzrə 2,8, bitkiçilik məhsulları üzrə 4 faiz artmışdır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***



# REGİONLAR

## Yardımlıda “dəyirmi masa”: “Bütün bəşəriyyətə qarşı törədilmiş cinayət”

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş “Bütün bəşəriyyətə qarşı törədilmiş cinayət” mövzusunda tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə mərkəzin əməkdaşları və Yardımlı rayonunun Köryədi kənd tam orta məktəbinin müəllimləri və şagirdləri iştirak ediblər.

Tədbir iştirakçıları Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, Xocalı faciəsi qurbanlarının xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Mərkəzin direktoru vəzifəsini icra edən Zeynəb Məmmədzadə 30 il əvvəl Xocalı şəhərində törədilmiş soyqırımı haqqında ətraflı məlumat verərək, bu qanlı faciənin təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədildiyini bildirib.

Z.Məmmədzadə çıxışında həmçinin qanlı cinayət aktının qurbanları ilə bağlı bir sıra statistik məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Mərkəzin əməkdaşı Elşən Abışov və Köryədi kənd tam orta məktəbinin müəllimi Elgün Ağamirzəyev mövzu ilə bağlı çıxış edərək, şagirdlərə qan yaddaşımız olan faciəni unutmamağı tövsiyə ediblər.

Tədbirdə Xocalı soyqırımından bəhs edən “Ümid işığı” filmi nümayiş etdirilib.

Sonda tədbir iştirakçıları mərkəzdə Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

## Yol çəkmək işin yarısıdır

### Qalan yarısı onu qoruyub saxlamaqdır



Müstəqilliyimizin ilk illərindəki yollarımızın vəziyyətini yəqin ki, çoxları unutmayıb. Elə sovetlər zamanında da yol problemimiz var idi. Neft diyarı olmasına baxmayaraq, Azərbaycanda yolların abadlığından danışmağa dəyməzdi.

SSRİ dağıldıqdan sonra isə baxımsızlıq ucbatından yollar daha da bərbad hala düşdü. Bütün istiqamətlərə - cənuba, qərbə, şimala dedən yollara çıxılası deyildi. Sərhədlər açıldığı üçün xarici ölkələrə, o cümlədən qonşu İrana, Türkiyəyə gedib-gələnlər oralardakı yolların bizimkindən qat-qat yaxşı olduğunu deyirdilər. Həqiqətdə də belə idi. Lakin abad yol iqtisadi imkandan asılıdır. Bu imkanı isə “Əsrin müqaviləsi”ndən gələn dividendlər verdi. Həmin dividendlər hesabına, ilk növbədə, həlli vacib məsələlər önə çəkildi ki, onlardan biri də regionların sosial-iqtisadi inkişafı idi. Bir-birinin ardınca regional inkişaf proqramları qəbul edildi. Proqramlarda yol infrastrukturunun yenidən qurulması da öz əksini tapdı. 2006-cı ildən başlayaraq Lerik, Yardımlı, eləcə də Astara, Lənkəran, Cəlilabad, Masallı, Biləsuvar, Salyan, Neftçala, Hacıqabul və digər rayonların yol infrasrukturu yenilənməyə başladı. Müasir yollar insanlara rahatlıq, ölkəmizin nəqliyyat sektoruna üstünlük gətirdi, Azərbaycan regionun avtomobil nəqliyyat qovşağına çevrildi.

Bir neçə il bundan öncə istifadəyə verilən Ələt-Astara magistral şose yolu dünya standartları səviyyəsində qurulmuşdur. Dördzolaqlı yol boyunca çaylar üzərində tikilən möhtəşəm körpülərin özü tikinti-memarlıq əsəridir. Yol boyunca salınan keçidlər, suötürücüləri, habelə hər iki tərəfdən çəkilən dəmir tor çəpərlər, xəbərdarlıq nişanları hərəkətin sürətini və təhlükəsizliyini təmin edir. Sürət bəzi ərazilər istisna olmaqla saatda 110 kilometrdir. Yolboyu yaradılan istirahət yerləri, yanacaqdoldurma və tibb məntəqələri, kafe və restoranlar beynəlxalq tələblərə cavab verir. İndi bu yollarla cənub bölgəsinə və geriyə əvvəlkindən 2-3 saat tez çatmaq olur.

Bu günlər isə İran İslam Respublikası ilə Azərbaycan sərhədindəki Astara çayı üzərində tikiləcək körpünün təməli qoyulmuşdur. Və bununla da qonşu ölkə ilə gediş-gəliş, ticari-iqtisadi əlaqələr daha da asanlaşacaq. Asanlaşan həm də rayonlararası, kəndlərarası və kəndarası yollarla gediş-gəlişdir. İndi ölkədə çox az yaşayış məntəqəsi tapılar ki, yolları yenidən qurulmasın və ya təzədən çəkilməsin. Biz hələ işğaldan azad edilmiş ərazilərdə çəkilən yolları demirik. Qarabağ və Şərqi Zəngəzurda yolçəkənlərimiz əsl möcüzə göstərirlər. Qısa vaxtda onların çətin relyefdə çəkdikləri yolların, tunellərin öhdəsindən heç “mənəm-mənəm” deyən ölkələr gələ bilməz.

Amma yolların çəkilişi işin yarısıdır. Qalan yarısı onların qorunmasıdır. Bu sahədə də işlər, demək olar ki, günün tələbləri səviyyəsində qurulmuşdur. Yol işçiləri yolun hər kilometrinə ciddi nəzarət edir, yaranmış hər hansı nasazlığı qısa müddət ərzində aradan qaldırırlar.

Qışın bu vaxtında onların işi daha çox və daha məsuliyyətlidir. Onlar qarlı-şaxtalı havalarda da yolları nəzarətsiz qoymurlar. Lazım gələndə yollara qum və duz səpir, asfaltı qar və buzdan təmizləyirlər. Çalışırlar ki, heç bir qəza hadisəsi baş verməsin, insanlar, daşınan yüklər mənzil başına vaxtında və sağ-salamat gedib-çatsın.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Salyandakı “44 nömrəli Yol İstismarı MMC”-nin kollektivi də qış mövsümündə belə bir məsuliyyətlə çalışır. İdarə respublika və beynəlxalq əhəmiyyətli yolun rayonun Kürsəngi kəndindən Şorsulu yaşayış məntəqəsinədək olan 85 kilometrlik hissəsinə xidmət göstərir. Burada qış dövrü üçün kifayət qədər duz və qum ehtiyatı tədarük olunmuşdur. Yanvar ayının üçüncü ongünlüyündə rayona yağan qar zamanı MMC-nin işçiləri gecəli-gündüzlü iş üstündə olmuş, texnikalar vasitəsilə yolları təmizləmiş, körpülərə və başqa ərazilərə duz və qum səpmişlər. İdarənin baş mühəndisi Azad Salahov deyir ki, sentyabr ayında artıq qışa hazır idik: “Lazımi qədər duz və qum tədarük etmişdik. 2 qreyder, 6 yükünüboşaldan maşın, yükləyici texnikalar da start xəttində idi. Bazar günü də daxil olmaqla hər gün üçün növbəlilik cədvəli tərtib etmişik. Çalışırıq ki, yollarımızda heç bir fövqəl hadisə baş verməsin”.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## ◆ Tovuz xəbərləri

## “Gənclər paytaxtı”nın seçilməsi ilə əlaqədar ümumrayon tədbiri keçirilmişdir



Tovuz şəhərinin 2022-ci ilin “Gənclər paytaxtı” seçilməsi ilə əlaqədar ümumrayon tədbiri keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar. Sonra Mədəniyyət evində istedadlı gənclərin əl işlərindən ibarət sərgiyə baxış keçirilmişdir.

“Nizami” adına Mədəniyyət evində davam etdirilən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilmiş, şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov Tovuz şəhərinin “Gənclər paytaxtı” elan edilməsi ilə əlaqədar bütün tovuzluları təbrik etmiş, rayon gənclərinə göstərilən etimadı doğrultmaq üçün qarşıda duran vəzifələrdən danışmışdır. Diqqətə çatdırmışdır ki, Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyulmuşdur: “Bu, dövlət siyasətinin Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə mübariz, vətənpərvər, intellektual bacarığı ilə seçilən yeni nəsil yetişmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına sanballı təkan vermişdir. Gənc nəslin vətənpərvər ruhda yetişməsinin nəticəsidir ki, Azərbaycan gəncləri Vətən müharibəsi zamanı böyük Qələbəyə imza ataraq 30 il işğal altında qalan torpaqlarımızı düşməndən azad etmişlər”.

Tədbirdə çıxış edənlər Ümummilli Lider Heydər Əliyevlə başlayan və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətinin əhəmiyyətindən danışmış, bu sahədə ölkədə əldə olunan uğurlardan bəhs etmişlər.

Sonra rayonun sosial-mədəni həyatında fərqlənən gənclərə Tovuz Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Tədbir geniş konsert proqramı ilə davam etmişdir.

## Milli Qəhrəmana həsr edilən filmin təqdimatı olub

Tovuzda “Nizami” adına Mədəniyyət evində Milli Qəhrəman Rafiq Alıcanovun xatirəsinə həsr olunmuş “Oğuz elinin qəhrəmanı” adlı filmin təqdimatı keçirilmişdir.





Təqdimat mərasimində idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri, gənclər, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Filmin nümayişindən sonra rejissor Kəmalə Musazadə çıxış edərək Mədəniyyət Nazirliyinin sifarişi ilə “Salnaməfilm” studiyasının “Azərbaycanın Milli qəhrəmanları” silsiləsi çərçivəsində 100-dən çox filmin çəkildiyini diqqətə çatdırmışdır. Kəmalə Musazadə onu da vurğulamışdır ki, o, bu filmdə qəhrəmanın həyatını, keçdiyi şərəfli döyüş yolunu, Vətənə olan bağlılığını, yurd, el-oba sevdalı olduğunu çatdırmağa çalışıb. Filmin 44 günlük Vətən müharibəsi ərəfəsində çəkildiyini bildirən müəllif əldə etdiyimiz şanlı Zəfərin həmin filmdə yer aldığını demiş, Milli Qəhrəmanın ailə üzvlərinin, yaxınlarının, doğmalarının, döyüş və sinif yoldaşlarının, müəllimlərinin Rafiq Alıcanov haqqında söylədikləri ürək sözlərinin, dəyərli fikirlərinin də filmdə yer aldığını diqqətə çatdırmışdır.

Çıxış edənlər qeyd etmişlər ki, vətənpərvərlik mövzusunda filmlərin ərsəyə gəlməsində, xüsusilə də Milli qəhrəmanlarımızın, şəhidlərimizin gələcək nəsillərə tanıdılmasında bu cür filmlərin böyük rolu və əhəmiyyəti var. Tədbirdə Milli Qəhrəman Rafiq Alıcanovun döyüş yoldaşları da öz ürək sözlərini söyləmişlər. Onlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbədən və bu qələbəni bizlərə bəxş edən şəhidlərimizdən söz açmışlar.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Əkinlərin donvurmadan sığortası başlayıb

Azərbaycanda ilk dəfə olaraq meyvə bağlarının və əkin sahələrinin donvurma - şaxtavurmadan sığortası başlayıb. Aqrar Sığorta Fondunun məlumatına görə, dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi artıq donvurma riskini də əhatə edir.

Nazirlər Kabinetinin 22 dekabr 2021-ci il tarixli müvafiq qərarları ilə aqrar sığortanın təminat verdiyi risklərin siyahısı bir qədər də genişləndirilib və buraya şaxtavurma riski də əlavə edilib. “Aqrar sığorta ilə bağlı regionlarda keçirilən görüşlərdə fermerlərin qaldırdığı və ən çox ehtiyac duyulan sığorta risklərindən biri də donvurmadan sığorta idi. Bunu nəzərə alaraq təsərrüfatların effektiv qorunması məqsədilə aqrar sığortanın əhatə dairəsinə bu risk də əlavə edilib”, - deyə Aqrar Sığorta Fondundan bildirilir.



Nəticədə fermerlər və əkinlə məşğul olan sahibkarlar meyvə bağlarını və əkinlərini donvurma riskindən güzəştli şərtlərlə sığorta edə bilərlər. Aqrar sığortanın bütün məhsullarında olduğu kimi, şaxtavurma (donvurma) sığortasında da sığorta haqqının yarısını fermerə dəstək məqsədilə dövlət ödəyir. Şaxtavurma-donvurma əkinçilikdə, xüsusilə də meyvəçilikdə təsərrüfatlara ən çox zərər vuran risklərdəndir. Bütün dünyada, o cümlədən Azərbaycanın təcrübəsindən yararlandığı Türkiyədə hər il donvurmadan dəyən zərərə görə böyük məbləğdə sığorta ödənişləri edilir.

Azərbaycanda şaxtavurma-donvurmadan sığorta ayrıca sığorta riski kimi nəzərdə tutulub. Əkin sahəsini bu riskdən sığorta etmək istəyən fermerlər onu əlavə ödəniş etməklə baza zərfinə əlavə olaraq ala bilərlər. Donvurma riski üzrə alma, armud, ərik, gavalı, gilas, heyva, xurma, nar, şaftalı, alça, albalı, çiyələk, zeytun, badam, qoz, fındıq, limon, naringi, portağal bağlarını sığortalamaq mümkündür.

Sığorta tarifləri regionlardan asılı olaraq dəyişir, istənilən halda sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.

## Oğuzda əsas kapitala yönəldilən investisiyanın həcmi 2,3 dəfə artıb

2021-ci ildə Oğuz rayonunda bütün maliyyə mənbələri hesabına əsas kapitala 32 milyon 528,1 min manatlıq investisiya yönəldilib. Bu, əvvəlki ilə nisbətən 2,3 dəfə çoxdur. İnvestisiyanın 45,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilib.

Bu barədə AZƏRTAC-a Oğuz Rayon Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, hesabat dövründə rayonda 14 milyon 931,7 min manatlıq tikinti-quraşdırma işləri həyata keçirilib. Tikinti-quraşdırma işlərinin 77 faizi dövlət, 23 faizi isə qeyri-dövlət müəssisə və təşkilatlarının, o cümlədən əhali təsərrüfatlarının payına düşür.

Ötən il rayonun ailə kəndli və ev təsərrüfatlarında ümumi sahəsi 9 min 30 kvadratmetr, yaşayış sahəsi 7 min 693 kvadratmetr olan 80 fərdi yaşayış evi tikilib istifadəyə verilib. Bu evlərin ümumi dəyəri 3 milyon 189 min manat olub.



## Qubada innovasiya festivalı keçirilib



Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Qubada innovasiya festivalı keçirilib.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun ərazisində təşkil olunan festivalda kənd təsərrüfatı məhsul istehsalçıları üçün intensiv bağçılıq avadanlıqları, müasir texnologiyalar əsasında əldə olunmuş əkin materialları, suvarma sistemləri və alternativ enerji mənbələri ilə çalışan su nasosları, soyuducu kamera, zərərvericilərə qarşı mübarizə vasitələri, yem konteyneri, aqrodron, aqrorobot, həmçinin alternativ yem bitkiləri kimi çoxçeşidli innovativ məhsul və avadanlıqların təqdimatı olub.

Əvvəlki təqdimatlardan fərqli olaraq bu festivalda digər iştirakçılarla yanaşı, Energetika Nazirliyinin Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyi, “AMEA-nın Elm və Texnologiya Parkı” MMC və 10-a yaxın yerli şirkət öz innovativ məhsul və texnologiyalarını nümayiş etdiriblər. Mütəxəssislər tərəfindən festival iştirakçılarına tərkibi qida maddələri ilə zəngin olan kinoa, amarant, xaşa, sorqo, yonca, reiqras, raps bitkiləri, biohumus, torpaq frezi, smart arı yeşiyi, sublimator, “smart moles” sensoru, “NF010” və “qızılquş” dronları, tütün və meyvəqurudan texnikaları barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, yerli mütəxəssislər tərəfindən istehsal olunan “sublimator” arı pətəyinin təmassız olaraq dərmanlanması prosesini həyata keçirən qurğudur. Nümayiş olunan, “Solis rotovator” adlanan qurğu kiçik bağ traktorlarına qoşulur, şum edildikdən sonra torpağın doğranması və hamarlanması üçün istifadə edilir. Təqdimatı keçirilən qoşqu tipi asma olan dik bıçaqlı rotasion mala qurğusu şum edildikdən sonra torpağın yumşaldılması üçün istifadə edilir. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, “smart moles” sensoru innovativ kök nəmlik sensor sistemidir. Sairs təzyiqli su boru şəbəkəsi mərkəzləşmiş “ağıllı” təzyiqli suvarma sistemi şəbəkəsidir. Alternativ enerji mənbələri ilə çalışan su nasoslarının köməyi ilə günəş panelləri vasitəsilə alınan enerjidən istifadə edərək suvarma həyata keçirilir. Quşqovan aparat isə xüsusi elektromaqnit şüaları buraxaraq, quşlara təsir edərək onları ərazidən uzaqlaşdırır.

Regionlarda fermerlərin böyük marağına səbəb olan yaşıl yem konteyneri heyvandarlıq sahəsi üçün ekoloji baxımdan təmiz, qidalı yaşıl yem hazırlayan qurğudur. Yüksək qidalılıq dəyərinə malik sorqo bitkisi şoranlığa, quraqlığa qarşı davamlı olmaqla pöhrə vermək qabiliyyətinə məxsusdur. Bu üstün cəhət onun dağ və aran rayonlarında yetişdirilib yaşıl və qaba yem kimi istifadə olunmasına imkan verir. Kinoa yüksək qidalılıq və məhsuldarlıq göstəricilərinə malik taxıl növüdür ki, həm insan qidasının, həm də heyvanların yem bazasının əsasını təşkil edir. Raps əsasən kənd təsərrüfatı heyvanları üçün şrot, jmıx kimi yüksəkkalorili yem istehsalında tətbiq edilir. Yüksək protein və enerji dəyərinə malik maralfalfa heyvandarlıq sahəsi üçün xüsusi əhəmiyyətə malikdir.

İştirakçılar tərəfindən maraqla qarşılanan festivalın ölkənin digər regionlarında da davam etdirilməsi nəzərdə tutulur.



# Mədəniyyət



● Sənət dünyası



**Musiqi alətdə, nəğmə dildə ifa edilir. Bəzi ifaçılar haqqında söz düşəndə deyirlər ki, "musiqi onun barmaqlarında dil açmışdı". Ona görə də ifa etdiyi musiqi aləti ilə xalqın yaddaşına yazılan sənətkarlarımız barmaqla sayılacaq qədər olsalar da, şöhrətləri dildə-ağızda, el-obada, mahaldan-mahala dolaşmaqda, dünya xalqlarının da diqqətini cəlb etməkdədirlər. Belələrindən biri də məşhur qaboy ifaçısı Kamil Cəlilovdur. O, dinləyicilərini daim kövrək hisslərə kökləyir, düşündürür, musiqinin dili ilə qəlblərin ağrı-acısını ifadə edir.**

# Kamilin qaboyunda dil açan musiqi könülləri ovsunlayır

Qəribədir ki, onun ifalarını radio dalğalarından, televiziya kanallarından dinləyirik və təəssüf ki, ancaq matəm günlərində. Səbəbini özü çox sadə bir şəkildə dilə gətirir: "Neçə il əvvəl Xalq yazıçısı Anar bir verilişdə musiqi ilə bağlı söhbətində demişdi: "...ney ağlayır, hönkürür, sızıldayır, özünü, necə deyərlər, şəhid eləyir, amma onun səsini eşitmirlər. Lakin bir dumbul ortalığa düşür, hay-həşir salır, onun səsini tez eşidirlər".

Daha ağrılı bir məqam: ustad ancaq qəmli mahnılar ifa etməsi barədə yayılan söz-söhbətlərdən üzülür: "Bəziləri elə bilirlər ki, ancaq matəm mərasimlərində çıxış edə bilərəm. Mənim çox zəngin repertuarım var: "Azərbaycan təranələri"ndən tutmuş, bəstəkarlarımızın mahnılarınadək..."

Maestro Niyazi onun sənətkarlığına yüksək qiymət verib: "Kamil o qədər sadədir ki, özü bilmir onda necə böyüklük var. Bəlkə elə bu böyüklükdən xəbərsiz olduğuna görə Kamil sənət zirvəsinə yüksələ bilib".

1990-cı ilin qanlı Yanvarında Kamilin qaboyu da matəm libası geyindi. Qaboy xalqımızın dərdini, kədərini, azadlıq aşiqlərinin nakam ömürlərinin, tanklar altında qalıb qaralan işıqlı arzu və istəklərinin, söndürülmüş tale ulduzlarının fəryadını dilə gətirdi.

Kamil Cəlilov həm böyük sənət ustadı, həm də geniş qəlbə malik, həssas ürək sahibidir. O, yanğılı nəğmələrin ifaçısı kimi sevilir. Məhz buna görədir ki, nəfəsindən qopan hər melodiya bizi ovsunlayır...

Muğam və segahın özünəməxsuz ifaçısı kimi yaddaşlara yazılan unudulmaz Rübabə Muradova Kamil Cəlilova belə vəsiyyət etmişdi: "Mən öləndə tabutum önündə bir "segah" çal. Bil ki, onda sən məni behiştə yola salmış olarsan".

O, sənət dostunun vəsiyyətinə ürəkağrısı ilə əməl etmişdi: Rübabə xanımın ölümünün qaboyu necə ağlatdığının şahidi olanlar həmin matəm musiqisinin təsirindən uzun müddət çıxa bilmədilər.

Balaban ilə çaldığı melodiya "Voyager qızıl plastinkası"na daxil edilən, "Şöhrət" ordenli Kamil Cəlilov illərdir qaboyda ifa etdiyi muğamla bizi dünənimizə aparır. Onun ifasında ahəngində biz "Zəmin-xarə", "Rahab", "Zabul", "Şur", "Çahargah", "Kəsmə-şikəstə"... kimi əbədiyaşar muğamlarımızı dinləyirik. Yarım əsrə yaxın müddətdə cəmi 3 qaboy dəyişib. Sonuncu qəlb həmdəmi ilə sirdaşlığı 30 ildən çoxdur. Qaboyu simfonik orkestrdən qoparıb xalq çalğı alətlərinin sırasına qoşub.

Dərdlərini ifasında anlatmağa çalışan Kamil Cəlilovun söhbətlərini dinləyəndə də sanki qaboya qulaq kəsilirsən. Uşaqlığından ağrı-acılı bir ömür yolu keçib. Sonra da deyirlər ki, "niyə belə yanğılı dili, nəfəsi var".

Kamil Cəlil oğlu Cəlilov 1938-ci il yanvarın 29-da Buzovna kəndində dünyaya gəlib. Atası Cəlil Böyük Vətən müharibəsindən iki ayağı şikəst qayıtdıqdan sonra Kamil cavan bacı da itirib. Onun ölümünü heç unuda bilmir: "Can verəndə yaş yarımlıq körpəsini ona göstərdilər. Gözlərindən iki gilə yaş gəldi və dərindən nəfəs alıb canını tapşırdı. Anamı da tez itirdim. Ona görə də həmişə dərdimi qaboyla bölüşürdüm. Bacım xəstə olanda anam deyirdi ki, o, müvəqqəti qonaqdır. Sonra bildim ki, öləcək. Evimizin zirzəmisinə girib o qədər ağlayırdım ki... Sonralar da xalqımızın başına gələn faciələr məni daha da tərpətdi..." Sonra əlavə edir: "Azərbaycan təranələri" mənə yuxuda gəlib, sonra durub gecə ilə onu maqnitofona hissə-hissə yazmışam. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Cəlilov, "Azərbaycan təranələri"ni dinləyəndə elə bil Azərbaycanın xəritəsini görürəm. Meşələrini, dağlarını, bulaqlarını, bir sözlə, mənzərəsini görürəm". Bir dəfə mənə danışdılar ki, Ulu Öndər Heydər Əliyev Ağsu aşırımından keçirmiş, radioda elan ediblər ki, Kamil Cəlilov "Azərbaycan təranələri"ni çalır. Maşınları saxlatdırıb ki, yerinə düşdü, bu mənzərədə Kamilə qulaq asmasaq, olmaz. Sonra Gülarə xanımdan mənim ifalarımın səsyazmasını istəmişdi. Səfərlərə gedəndə qulaq asırmış. Ümummilli Lider elə bir şəxsiyyət idi ki, yaxşı iş heç vaxt onun nəzərindən qaçmazdı".

Prezident təqaüdçüsü 40 ilə yaxındır ki, el şənliklərində ifa etməyə getmir. 20 Yanvarda, Xocalı faciəsinin ildönümlərində radiolarda, telekanallarda, Şəhidlər xiyabanında ifaları səslənir. "Zəmin-xarə"sinə qulaq asan neçə ana təsəlli, toxtaqlıq tapır.

## O, sənətinin fanatıdır

Kamil Cəlilov orta məktəbdə müxtəlif tədbirlərdə qarmon və nağara çalıb, şənlikləri yola verib. Sonra Asəf Zeynallı adına musiqi məktəbini və Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Əhsən Dadaşovun rəhbərlik etdiyi ansamblda əvvəlcə qoşanağara, sonra qarmon ifaçısı olub: "Konservatoriyada oxuyanda bizə dərs proqramına uyğun olaraq, qaboyda klassik bəstəkarların əsərlərini çalmağı öyrədirdilər. Amma mən hər dəfə qaboyu əlimə alanda ürəyimdən muğamlarımızı çalmaq keçirdi. Buna görə də boş vaxtlarımda sinfə tək girib, qaboyda muğam çalmağa çalışırdım. Doqquz-on muğamı ifa eləmişəm. "Segah", "Zəmin-xarə", "Bayatı-Şiraz", "Rahab", "Zabul", Humayun" və ritmik muğamlardan "Qarabağ şikəstəsi"ni çalmışam. Çoxlu sayda xalq və bəstəkar mahnılarını da buraya əlavə etsək, görün nə qədər olur. Hamısı da televiziya və radionun arxivində lentlərdə saxlanılır.

Bir dəfə "Dan ulduzu" ilə İtaliyaya qastrola getmişdik. Konsertlərimiz çox maraqla qarşılanırdı. Mən də arabir qaboyla mahnıya uyğun solo çalırdım. Konsertlərin birində Gülarə xanım dedi ki, Kamil, axırda çıxıb bir muğam çalarsan, qoy bizim musiqinin gözəlliyini eşitsinlər. Mən isə dedim ki, bunlar muğamatı nə başa düşəcəklər? Ancaq Gülarə xanımın israrından sonra sözünə əməl etdim. Əvvəlcə "Küçələrə su səpmişəm" xalq mahnısını çaldım, keçdim "Bayatı-Şiraz"a, dalınca da "Bayatı-İsfahan"ı ifa etdim. Zəngulələri eləyəndə zaldan bir alqışlar qopdu ki, məəttəl qaldım. Sən demə, dinləyicilər arasında çoxlu türklər, cənublu soydaşlarımız varmış. Alqışlar bitəndən sonra səhnəyə bir kişi qalxdı. Yanıma gəlib dedi ki, mən neçə illərdi konservatoriyada qaboy ifaçılığına aid dərs deyirəm, ancaq heç vaxt belə səslər eşitməmişəm, siz buna necə nail olmusunuz? Bunun notu var sizdə? Sonra o, mənim qaboyumu alıb diqqətlə baxdı. Dedim ki, notu yoxdur, bu, bizim milli muğamlarımızın improvizasiyasıdı, ürəyimdən gələn səslərdi...

"Azərbaycan təranələri"ni, "Naxçıvan təranələri"ni mən yazmışam. Bu çalğıların hamısı mənə elə bil yuxuda verilib. Bu əsərlər rəhmətlik Ulu Öndərimiz Heydər Əliyevin də çox xoşuna gəlirdi.

## Sazın Ədaləti, kamanın Habili, qaboyun Kamili...

Bu sıranı genişləndirmək də olardı. Lakin adlarını böyük ehtiramla çəkdiyimiz bu korifeylərimizin daim xüsusi təqdim edilmələri əsl sənətə və sənətkara xalq sevgisinin ifadəsidir.

Hər birinin yaradıcılığı haqqında kifayət qədər söz də açılıb. Xalq artisti, Prezident təqaüdçüsü Kamil Cəlilov da öz sənəti ilə adını musiqi tarixinə yazdırmış ifaçılardandır. O Kamil ki, Şərq xalqlarına məxsus, almanların musiqi aləti kimi tanıdılan qaboyu bizimkiləşdirmişdi. O, sevincli günlərimizdə qaboyu ilə bizi sevindirib, kədərli anlarımızda isə yalnız gözlərimizi deyil, ürəklərimizi də ağladıb...

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Füsunkar təbiətimiz

# Qarabağın zəngin turizm potensialı var



**Ötən ilin noyabrında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində qazanılan tarixi Qələbədən sonra erməni işğalından azad edilmiş ərazilərdə aparılan geniş bərpa və quruculuq işləri bu bölgəni həm də yerli və xarici ölkələrin turizm həvəskarları üçün diqqətçəkən edəcək.**

Dövlət başçısı ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfransda demişdir: "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək. Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".

COVID-19 pandemiyasının çətinliklərinə baxmayaraq, Qarabağda bir ildən artıqdır ki, böyük bərpa və quruculuq işləri davam etdirilir. Bu işlərin tərkib hissəsi kimi, Qarabağın turizm potensialının inkişafına xüsusi diqqət göstərilir. Bu da yaxın illərdə bölgədə daha çeşidli turizm xidmətlərinə səbəb olacaq. Beynəlxalq səyahətlərə mərhələli şəkildə yenidən start veriləcək, dünya ölkələrində Azərbaycanın turizm potensialının təbliği sürətləndiriləcək. Bunun ən bariz nümunələrindən biri ötən il oktyabrın 26-da istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanıdır. Qarabağın hava qapısı adlandırılan bu liman dünya standartlarına uyğun inşa olunub. Hava limanına istənilən tip hava gəmisinin eniş etməsi mümkündür. Burada bütün işlər beynəlxalq norma və standartlara uyğun həyata keçirilib. Hava limanının ətrafında gözoxşayan abadlıq-quruculuq işləri aparılıb. Sərnişinlərin və turistlərin rahatlığı üçün hər cür şərait mövcuddur. Rayonun Cocuq Mərcanlı yaşayış massivində yaradılacaq Suvenir İstehsalı Müəssisəsində turistlər üçün müxtəlif çeşidli hədiyyələr, o sıradan, milli ornamentli saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar təklif olunacaq.

Hazırda Zəngilan və Laçında da beynəlxalq hava limanları tikilir. Bunlar başa çatdırıldıqdan sonra bu bölgəyə yerli turistlərin, eləcə də xarici ölkələrdən səyahət etməyə gələnlərin sayı xeyli artacaq. Beləliklə, hər iki hava limanının istifadəyə verilməsi bölgə turizminin inkişafında müstəsna rol oynayacaq. Əsrarəngizliyi ilə seçilən Laçında və Zəngilanda çoxlu sayda termal su mənbələri mövcuddur. Bu ərazilərdə tarixi və dini abidələr, çinar meşələri var. Odur ki, təbiətinin zənginliyinə görə bu bölgənin gələcəyi daha çox ekoturizmlə bağlı olacaq. Bundan səriştəli istifadə edilərsə, çox güman ki, Qarabağ dünyada daha çox diqqətçəkən ekoloji turizm məkanlarından biri olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş Ağdama, Zəngilana, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Şuşaya və Hadruta səfərlərində dəfələrlə vurğulamışdır ki, biz erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Azərbaycan xalqı buna inanır və öz rəhbərinin qurucu və yaradıcı lider olduğuna əmindir. İctimaiyyətdə belə bir əminlik var ki, bu yerlər yaxın gələcəkdə cənnətə dönəcək, turistlərin böyük marağına səbəb olacaq.

Gələcəkdə Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulur. Şuşanın Azərbaycanın Mədəniyyət paytaxtı elan edilməsi turistlərin də diqqətindən yayınmayacaq. Artıq şəhərdə rəngarəng tədbirlərin təşkili, festivallar, turizm məhsullarının təqdimi, beynəlxalq sərgilərin və digər mədəni-kütləvi görüşlərin keçirilməsi böyük maraq doğurur.

Laçın-Kəlbəcər, Qubadlı-Zəngilanda təbiət, qış, dağ və sağlamlıq turizmi inkişaf etdiriləcək, Füzuli-Ağdam-Cəbrayılda isə dağıdılmış bəzi mədəniyyət müəssisələri və müharibənin bəzi qalıqları açıq muzey şəklində saxlanılacaqdır. Çünki turizmin iqtisadi tərəfi ilə yanaşı, siyasi-təbliğati tərəfi də var.

İlin bütün fəsillərində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan Qarabağda aparılan bərpa və quruculuq işləri sırasında turizm obyektlərinin, istirahət mərkəzlərinin, hotellərin tikintisinə də xüsusi diqqət yetirilir. Ekspertlərin fikrincə, indi keçmişdəkindən də səviyyəli, müasir standartlara cavab verə biləcək infrastruktur yaradılacaq. Yaxın gələcəkdə bu bölgədə turizmin inkişafı üçün regional iqtisadi inteqrasiya layihələri reallaşacaq. Artıq Füzuli-Şuşa yolu istifadəyə verilib. Qarabağdan keçməklə Naxçıvanı və Türkiyəni özündə birləşdirən dəmir yolu xəttinin çəkilişi nəinki bölgəyə, bütövlükdə cənubi Qafqaza turizm axınını sürətləndirəcək. Digər tərəfdən yeni layihələrin icrası nəticəsində səyahətçilərin vaxt itkisi minimuma endiriləcək, sənədləşmə ilə bağlı məsələlər sadələşdiriləcək və əlavə xərclər turistlər tərəfindən ödənilməsi aradan qaldırılacaq.

Xudafərin vasitəsilə İran, Naxçıvan üzərindən isə Türkiyə turistlərinin gəlməsi gözlənilendir. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən turist axını olacaq. Ölkəmizdə turizmin prioritet bazaları var ki, Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən müəyyən qurumlar tərəfindən bu istiqamətdə layihələr hazırlanır, zəruri tədbirlər həyata keçirilir.

Ölkə rəhbərinin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası hazırlanıb. Sözügedən sənədə görə, turizm məhsullarının hazırlanması həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılacaq. Əlbəttə, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da yaradılacaq.

Dövlət səviyyəsində, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın həm təbii, həm də antropogen turizm resursları gündəmə gətirilir. Qarabağ dağlıq ərazi olduğundan dağ və alpinizm turizmi xüsusilə diqqətdədir. Bundan başqa, gəzintilər, aktiv və ekstremal turizmin inkişafı üçün biri-birindən maraqlı layihələr işlənib. İşğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqca, ilk növbədə, Azərbaycan vətəndaşlarının həmin ərazilərə səfərləri nəzərdə tutulub. Xatırladaq ki, bu layihənin tərkib hissəsi kimi Bakı-Şuşa-Ağdam marşrutları üzrə ilk səfərlər təşkil edilmişdir. Bakı-Şuşa-Bakı avtobus reysi hələlik həftədə iki dəfə həyata keçirilir. Görünən odur ki, illərlə həsrətində qaldığımız yerləri gəzmək, görmək istəyənlərin sayı minlərlədir. İkinci böyük auditoriya potensialı xaricdə yaşayan Azərbaycan diasporu nümayəndələridir. İlk səfər marşrutunda səyahətçilərin sayı 400-ə yaxın olmuşdur. On milyondan çox azərbaycanlı, elə hər bir soydaşımız Azərbaycanın mədəni mərkəzinə çevrilmiş qədim Şuşanı görməkdə çox maraqlıdır.

*Rəhman SALMANLI, "Azərbaycan"*

● İstirahət məkanı

# Bakının "Qış parkı"

## Bir vaxtlar istirahət və əyləncə yeri olan Bakı bağları bu gün pandemiyaya görə insanların gur coşqusu ilə isinmir

**Bakını heç də əbəs yerə parklar şəhəri adlandırmayıblar. Paytaxtın müxtəlif yerlərində gözəllikləri və özəllikləri ilə gözoxşayan bu parkların (Dağüstü park, Filarmoniya bağı (Qubernator bağı), Fəvvarələr meydanı, Dədə Qorqud parkı, Heydər Əliyev Muzey-park kompleksi, Axundov bağı, Xaqani bağı (uzun illər Molokan bağı adlanıb), Səməd Vurğun bağı, Zorge adına park, Dənizkənarı Milli Park, Zabitlər parkı, Sahil parkı...) hər birinin öz infrastrukturu, çoxsaylı kafe, restoran, attraksion və uşaq meydançaları var.**





İlk parkın yaşı da az deyil: XIX əsrin 30-cu illərinin ortalarında salınıb. "Qubernator" adlanan həmin bağ açılandan şəhərdə hər il onlarca yeni park və bağça istifadəyə verilib. Bu məkanlar istirahət etmək, uşaqları gəzdirmək, dostlarla ünsiyyətdə olmaq, ya da, sadəcə, tənhalığa qapılmaq üçün əvəzedilməz məkanlardır.

Belə parklardan biri də son illər salınan və daha çox diqqətçəkən "Qış parkı"dır. Hamımızın "Qış parkı" kimi tanıdığımız bu kompleks paytaxtın simasının daha da yenilənməsi, şəhər sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

Füzuli və Mirzağa Əliyev küçələri arasında inşa edilən, 4 min 500 avtomobil tutumuna malik yeraltı avtomobil dayanacağı, yerüstü park, bağ, fəvvarələr kompleksi 2013-cü il may ayının 10-da istifadəyə verilib.

Öz gözəlliyi ilə sakinləri heyran edən istirahət guşəsi şəhərdə ən böyük parkdır: ümumi ərazisi 7 hektar, uzunluğu 1 kilometr, eni isə 150 metrdir. Park Heydər Əliyev sarayının arxasından başlayaraq Füzuli meydanına qədər olan ərazini əhatə edir. Burada 7 yeraltı keçid inşa olunub ki, orada da 24 eskalator quraşdırılıb. Hər keçiddə fiziki əngəli olan insanların rahat hərəkət etmələri üçün xüsusi qurğular qoyulub. Bundan başqa, avtomobillərini yeraltı dayanacaqda saxlayanların parka



*Foto İlham BABAYEVİNDİR*

rahat qalxmaları üçün 14 lift və 32 keçid var. Parka daxil olarkən ən müasir tələblərə cavab verən fəvvarə kompleksi diqqəti cəlb edir. Parkın girişində və çıxışında quraşdırılan fəvvarələrin ətrafına sakinlər üçün xüsusi oturacaqlar qoyulub. Ətrafı yaşıllıqlarla örtülən istirahət guşəsində müxtəlif güllər və palma ağacları əkilib. Belə ki, bura 2 minə yaxın ağac, 10 mindən çox bəzək kolu və növbənöv güllərlə əhatələnib. Güllərin hər birinin üzərində onun haqqında məlumat verən xüsusi "məlumat lövhələri" qoyulub.

Oturacaqların ətrafındakı güllər diqqəti cəlb edir. Parkın ərazisində qeyri-adi dizaynla bəzədilmiş üç kafe də sakinlərin istifadəsindədir, baxmayaraq ki, bu günlər "qonaq-qaralı" deyil. Kafelər qeyri-adi dizaynları ilə də fərqlənir. Parkı maraqla gəzən şəhər sakinləri burada şəkil çəkdirməyə daha çox üstünlük verirlər. Asudə vaxtın səmərəli keçirilməsi üçün parkın əvəzi olmasa da, koronavirus pandemiyası bu cənnət-məkanı insan coşqusundan uzaq salıb.

"Qış parkı" ilə bağlı diqqətçəkən daha bir təəssüfləndirici məqam da odur ki, bu istirahət mərkəzinin onlayn təqdimatı üçün yaradılan resursları yenilənmir. Yəni 2013-cü ilin may ayında istifadəyə verildikdən təxminən iki ay sonra "Qış parkı"nın "Feysbuk"da rəsmi səhifəsi yaradılsa da, bununla sanki işlər sona çatıb. Bu səhifədə parkla bağlı ilk iki paylaşım 3 avqust 2013-cü il tarixində olub. Üçüncü paylaşım 11 may 2017-ci ilə, növbəti 4-cü isə 5, 6, 7 və 10 dekabr 2020-ci il tarixlərə təsadüf edir, vəssalam.

Bir vaxtlar insanların istirahət üçün daha çox üstünlük verdiyi bu parka da pandemiya səbəbindən gələnlərin sayı azalıb. Bununla belə, parkda arabir iri addımlarla gəzişən yaşlılara, qocalara, bir tərəfdə "yarışan" ağsaqqallara da rast gəlmək olur. Onlar da ya domino, ya da nərdtaxta oynamaqla günlərini keçirirlər.

Belələrindən biri də ömrünün ixtiyar çağlarında Şuşası işğaldan azad edilən Qədir Qayıbovdur. 2020-ci ilin 8 noyabr tarixindən özünü dünyanın ən xoşbəxti hesab edən Qədir kişi ömrünün 90-cı ilində olsa da, özünü hamıdan sağlam hesab edir. Dominoda onu "udan olmayıb", - deyir və pandemiyanı lənətləyir ki, belə gözəl istirahət məkanları qışın şaxtasından daha çox insan nəfəsinə həsrət qalmasından "donub".

Bir sözlə, yolu buradan düşənlər deyirlər ki, "Qış parkı" fəsillərin hamısında gözəldir. Pandemiya dövründə insanların yolu buradan düşmədiyi üçün yaranan səssizlik şübhəsiz ki, ötəridir. Tezliklə bu istirahət məkanı yenə əvvəlki növrağına qovuşacaq...

*M.NƏRİMANOĞLU, "Azərbaycan"*




# Yaşlıların evi



**Qocalar evi hazırda ahıl insanların qayğı mərkəzi kimi fəaliyyət göstərən və onları bir çox məişət öhdəliyindən xilas edən məkandır. Belə evlərin mövcudluğu çox uzaq tarixə getmir.**

XVII əsrə qədər hər bir ailə öz yaşlı üzvünə xüsusi diqqətlə qulluq edirdi. Fəqət uzunömürlülük, xəstəliklərin kəskinləşərək artması, ailə üzvlərinin sayının azalması vəziyyəti bir qədər mürəkkəbləşdirdi. Bununla da yaşlılar baxımsız qaldıqları üçün "Yoxsul evlər" adlandırılan məkanlara üz tutmağa başladılar.

Elə həmin dövrdə ilk "Yoxsul evlər" İngiltərədə yaradılmışdı. Bələdiyyələr xərcləri qarşıladıqları üçün bura müxtəlif kateqoriyadan insanlar, kimsəsizlər, qocalar, ruhi xəstələr yerləşdirilirdi. Lakin şərtlər nisbətən fərqli idi. Əmək qabiliyyəti olanları işləməyə sövq edirdilər, əks təqdirdə onlar həbs olunacaqları ilə hədələnirdi. "Yoxsul evlər" şəraitin olduqca pis olmasına və toplum tərəfindən davamlı tənqid edilməsinə baxmayaraq, XX əsrin əvvəllərinə qədər mövcud olub.

Britaniyadan sonra belə məkanlar Amerikada yaradılıb. Amerikada "Yoxsul evlər"in yaradılması ideyası ingilis mühacirləri tərəfindən irəli sürülüb. İlk dəfə qocalar üçün xüsusi məkan XIX əsrdə ABŞ-da yaradılıb. Xüsusilə kilsə nümayəndələri bir vaxtlar hörmətlə yaşayan insanların ən nifrət ediləcək cəmiyyətdə dünyadan köçmələrinə razı ola bilmədikləri üçün belə bir addımı atmışdılar. Buradakı ehtiyaclar dövlət tərəfindən təmin edilirdi. Sonralar "Qayğı evi" kimi adlandırılan mərkəzlər müəyyən pul müqabilində xidmət göstərməyə başlamışdı.

Amerikada sonrakı dövrlərdə "Qocalar evi" müvəffəqiyyətlə özünü doğrultmuşdu. Bununla da belə mərkəzlər dövlət tərəfindən maliyyələşdirilən ictimai və daimi yaşayış yerinə çevrilməyə başladı. Burada yaşlılar təkcə yeməklə yox, həmçinin tibbi yardımla da təmin edilirdilər.

Həmin dövrdə Böyük Britaniyada səhhətində problemi olan yaşlı insanlar xəstəxanalarda saxlanılırdılar. İkinci Dünya müharibəsindən sonra xəstəxanaya gətirilən yaralı əsgər və mülki vətəndaşların sayı artdığından xəstəxanada həddən artıq sıxlıq olmuşdu. Bu hadisə ilə ictimai qocalar evinin yaranma zərurəti meydana çıxdı. 1950-ci ildən sonra "Qocalar evi"nin standart qanunlarını tənzimləyən bir neçə akt da qəbul edildi. Bu qaydalar xəstələrin ehtiyaclarının ödənilməsinə nəzarəti ehtiva edirdi.

Bu gün qocalar evləri müxtəlifdir. Bəzi qocalar evləri hələ də xəstəxanaya, bəziləri isə daha çox evə bənzəyir. Bu məkanların sakinləri öz qayğılarına dair vəsaiti öz hesablarına və ya dövlət yardımı ilə ödəyə bilirlər. Evlərdə yataqxana və yeməkxanadan əlavə bir çox hallarda saç ustası, bank şöbəsi fəaliyyət göstərir. Xüsusilə yaşıllıqda salınan mərkəzlər ərazidə rahat gəzinti imkanını da təmin edir.

# Kimsəsiz uşaqların pənah yeri

**Dünyaya göz açan körpələrin ilk ünsiyyəti onlara həyat verən ana və ataları ilə tanışlıq olur. Lakin boya-başa çatmaq yolunda onları tək qoyub bu vacib məsuliyyəti üstlərindən atanların köməyinə ya küçələr çatır, ya da hansısa uşaq evinin qapısı. Tərk edilən uşaqlar həyatın keşməkeşli yollarında tək addımlamalı olurlar.**



Dünyada ilk kimsəsiz uşaqlar evi 1434-cü ildə Xorvatiyanın Dubrovnik şəhərində açılıb. Hökumət 1432-ci ildə "uşaqları şəhərin ətrafına heyvan kimi atmaq iyrənc və qeyri-insanidir" sözləri ilə şəhərdə uşaq evi açılmasına qərar vermişdi. Açılan ilk uşaq evi mərkəzdə Müqəddəs Kler monastırının bir hissəsi olaraq inşa edilmişdi. Tikilinin qalıqları bu günə qədər də qalmaqdadır.

Həmin vaxtda insanların hədsiz kasıblığı ucbatından uşaqların çoxu uşaq evində böyüməli olurdu. Onlar burada altı yaşına qədər qalır, sonra övladlığa verilir, bəzən də valideynləri tərəfindən geri götürülürdülər. Övladlarını uşaq evinə vermək utancından qurtulmaq üçün analar qara paltar geyinir, gecəyarı buraya gəlirdilər. Qapının yanında quraşdırılmış fırlanan qurğuya uşağı qoyub, qapının zəngini çalaraq gözdən itirdilər. Napoleon müharibə zamanı uşaq evlərini bağlatdırmış, buranı silah-sursat anbarına çevirmişdi.

Dubrovnikdən sonra növbəti uşaq evi ABŞ-ın Missisipi ştatının Natchez şəhərində 1729-cu ildə açılıb. Bura həmin vaxtda hindilərlə ağdərili amerikanlar arasında münaqişə nəticəsində yetim qalan uşaqlara qulluq etmək üçün yaradılmışdı. Bununla belə getdikcə uşaq evlərinin sayı artmışdı. 1850-ci ildə Amerikada 56 uşaq müəssisəsi fəaliyyətdə idi. Bu müəssisələr epidemiyalar (vəba, vərəm, qrip), müharibələr, immiqrant axını, artan urbanizasiya və iqtisadi böhran kimi hadisələrin baş verməsi səbəbilə uşaqların əsl pənah yerinə çevrilmişdi.

Lakin bu evlər müvəqqəti yardım yerləri olaraq nəzərdə tutulmuşdu. Ailələrinə qaytarılmayan uşaqlar başqa şəxslərə və ya əl əməyinin lazım olduğu ölkələrə müqaviləli şərtlərlə göndərilirdi. Belə nümunələrdən biri də 1900-cü illərin əvvəllərində bir qrup uşağın fermerlərə yardım etmələri üçün kəndlərdən birinə qatarla yola salınmaları idi. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) məlumatına görə, hazırda dünyada təxminən 153 milyon uşaq yetimdir. Müxtəlif ölkələrdə fəaliyyət göstərən uşaq evlərinin şəraiti, uşaqların ehtiyaclarının ödənilməsi, təhsilləri istiqamətində həm dövlətlər, həm də xeyriyyəçilər ilbəil nəzarət və dəstəklərini artırırlar.

# Həbsxana cəzaçəkmə müəssisəsinə çevrildi…

**Cinayət törətmiş və ya qanunsuz hərəkət törətməkdə təqsirli bilinən şəxslərin saxlanıldığı yerlər, yəni həbsxanalar hələ eramızdan əvvəl də mövcud olub.**



Belə ki, eramızdan əvvəl birinci minillikdə Mesopotamiya, Misir kimi qədim sivilizasiyalarda ölüm və ya köləlik həyatı ilə bağlı hökm verilməzdən əvvəl həbsxanalardan müvəqqəti yer kimi istifadə olunurdu. Burada heç bir məhkum uzun müddət qalmırdı. Lakin zaman keçdikcə həbsxanalar islah müəssisələrinə çevrilməyə başladı. Bu müəssisələr həmçinin siyasi məhbuslar, dövlət düşmənləri və hərbi əsirlərin saxlanması üçün də uyğun yer sayılırdı.

Qədim dövrdə həbsxanalar əsasən yeraltı zindanlar formasında tikilirdi. Yunanıstanda məhbuslar tez-tez tanışları və ailələri tərəfindən ziyarət oluna bilinən binalarda saxlanılırdılar. Onların qaçmamaları üçün zindanlar, hündür divarlar tikmək əvəzinə ayaqlarına taxtadan zəncirlər bağlayırdılar. Qədim Roma İmperiyasında isə daha sərt üsullardan istifadə edilirdi. Onların həbsxanaları yalnız yeraltı, sıx klostrofobik keçidlər və kameralardan ibarət olurdu. Məhkumlar burada ömürlük və ya müəyyən müddətə divarlara zəncirlənmiş formada saxlanılırdı.

1116-cı ildə İngiltərə kralı II Henri münsiflər heyəti anlayışından istifadə olunan hüquq sisteminin ilk layihəsi ilə birlikdə həbsxana tikintisini də tapşırıb. Lakin ilk cəzaçəkmə müəssisəsi kimi yaradılan həbsxana 1595-ci ildə Amsterdamda olub. Bu zaman oğurluq edən şəxsləri öldürməyin ədalətsiz olduğu düşünülübdü. Həbsdə etdikləri əməldən çəkinmələri üçün onlara ikinci şans verilibdi. Sonradan bu ideya İtaliya, İngiltərə kimi ölkələrə də yayılmış həbsxanalar "gözləmə mərkəzlərindən" cəzaçəkmə müəssisələrinə çevrilmişdi.

XVIII əsrdə isə həbsxanalarda olduqca şiddətli cəzalar tətbiq olunur, məhkumlara müxtəlif üsullarla işgəncələr verilirdi. Dünyanın ilk modern həbsxanası 1829-cu ildə Filadelfiya yaxınlığında yerləşən "Şərq Penitensiarı" idi. Həmin ilin 25 oktyabr tarixində ikiillik həbs olunan 18 yaşlı Çarlz Uilyams ilk dəfə burda cəzasını çəkən məhkum olmuşdu. Həbsxananın indikilərdən nisbətən böyük kamerasında polad çarpayı, tualet, taxta stul, skamya və yemək qabları var idi. İçəri günəş işığı tavandakı 8 düymlük pəncərədən düşürdü. Tək öhdəlik isə "İncil" oxuyaraq günahlardan təmizlənmək idi.

# Nobel niyə mükafat təsis etdi?

**Bakı neftinin hesabına varlanan ən məşhur xarici şirkətlərdən birinin sahibləri Nobel qardaşları olub. Onlar Bakının nefti ilə milyonluq sərvət yığmağı bacarmışdılar. Dinamitin ixtiraçısı Alfred Nobel bəşəriyyət üçün böyük işlər görmək, bu sərvətdən doğru istifadə etmək istəyir.**



Lakin 1888-ci ildə qardaşı Lüdviqin ölümü ilə Alfred gözlənilməz addım atır. Belə ki, bir gün o, qəzetdə öz nekroloqunu görür. Burada qardaşı ilə səhv salınaraq onun öldüyü dərc edilmişdi. Məqalə yazarı dinamitin kəşfinə görə onu "Ölüm taciri" adlandırmışdı. Alfredə bu yazı çox pis təsir edir və o, bəşəriyyət, insanlıq üçün böyük addımlar atmağı özünə borc bilir. Yığdığı 265 milyonluq sərvətin böyük bir qismini Nobel mükafatının təsisinə ayırır.

Alfredin əsl ölümündən sonra vəsiyyəti oxunduğu zaman qohumları çaşbaş qalırlar. O, sərvətini demək olar ki, heç kimə vəsiyyət etməmişdi. Lakin onlar anlamamışdılar ki, Nobel əslində sərvətini hər bir insana - cəmiyyətə bağışlamışdı. Təsis edilən bu mükafatın ilk dəfə seçilən şəxslərə paylanılması 1901-ci il dekabrın 10-da, Nobelin ölümünün beşinci ildönümündə baş tutmuşdu.

Nobel mükafatı 6 sahə üzrə verilir - kimya, fizika, tibb və ya fiziologiya, ədəbiyyat, sülh və iqtisadiyyat. Mükafatın məbləği təxminən 1,4 milyona bərabərdir. Verilən mükafat medalının çəkisi 1980-ci ilə qədər 200 qram və diametri 66 millimetr olan 23 karatlıq qızıldan hazırlanırdı. Lakin hazırda iqtisadiyyat üzrə mükafat medalı istisna olmaqla, bütün medalların ümumi çəkisi 175 qramdı.

Medalların hər biri sahəsinə görə fərqli dizayn olunub. Medalın ilkin dizaynı Erik Lindberqə həvalə edilib. O, qərara gəlib ki, bütün medalların ön hissəsində Alfred Nobelin büstü təsvir edilsin, aşağısında doğum və ölüm tarixləri latın dilində yazılsın. Medalın ön hissəsi qeyd olunduğu kimi hazırlanır, arxa hissəsində isə Nobel laureatının adı qeyd olunur.

Addan əlavə, medalın arxasında sahəyə uyğun təsvirlər də mövcuddur. Bütün medallarda Roma şairi Virgilinin "Eneida" əsərindən "Yer üzündə həyatı yeni bacarıqlarla yaxşılaşdıranlar" sətri qeyd olunub. Alfred Nobelin xatirəsinə iqtisadiyyat elmləri üzrə mükafatı isə 1968-ci ildə İsveç bankı olan "Sveriges Riksbank" hazırlayıb və bir il sonra mükafat mərasimində təqdim edib. Nobel mükafatı texnika üzrə olmasa da, onunla eyniləşdirilir və qaliblər Nobel mükafatı laureatları ilə birlikdə elan edilir.

Nobel sülh mükafatını Gustav Vigeland dizayn edib. Medalın hər iki tərəfi Lindberqin dizaynından fərqlənir. Üst hissədə Alfred Nobelin daha böyüdülmüş portreti yer alıb. Arxa hissəsində bir-birinin çiyinlərini tutan 3 kişinin təsviri verilib. Şəklin ətrafında "İnsanların sülhü və qardaşlığı üçün" kimi tərcümə olunan mətn yer tutub.

Hər il dekabrın 10-da İsveçdə təşkil olunan mərasimdə laureatlara mükafatı İsveç kralı təqdim edir. Sülh mükafatının təqdimatı mərasimi isə eyni gündə Norveçdə Norveç kralının iştirakı ilə baş tutur.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




## Kosmosda film studiyası yaradılacaq



**Amerikanın "Space Entertainment Enterprise" şirkətinin kosmik stansiyasında film çəkilişləri və televiziya verilişlərinin yayımlanması nəzərdə tutulub. Stansiya "SEE-1" adlandırılacaq. O, orbitdəki çəkisizlikdə kontent yaratmaq istəyən bütün rəssamlar, prodüserlər və kreativ insanlar üçün açıq olacaq.**

Kosmik stansiya modulunun hazırlanmasına "Axiom Space" şirkəti də cəlb ediləcək. Qeyd etmək lazımdır ki, sözügedən qurum BKS (Beynəlxalq Kosmik Stansiya) üçün kommersiya məqsədli komponentlərin hazırlanması üzrə NASA-dan icazə alıb. O, həmçinin kosmik turizmlə də məşğul olacaq.

"Axiom Station" dünyanın ilk kommersiya məqsədli baza infrastrukturu kimi yaradılaraq Yer kürəsinin orbitində müxtəlif iqtisadi xidmətləri də təklif edəcək.

# Türkiyənin sürücüsüz avtobusları Avropada məşhurlaşır

**Tezliklə Norveçin Stavanger şəhərində Türkiyənin "Karsan" şirkətinin istehsalı olan sürücüsüz avtobuslar görünəcək. Məlumata görə, 50 sərnişinlik, özü idarə olunan, 8 metr uzunluğu olan avtobus bu ilin aprelindən etibarən şəhərin mərkəzi rayonunda istismara buraxılacaq.**



Avtobusun şəhər küçələrindən əvvəl "Forus Biznes Parkı"nda sınaqdan keçirilməsi nəzərdə tutulur. Sınaq dövründə vəziyyətə nəzarət və lazım gəldikdə müdaxilə etmək üçün sükan arxasında müvəqqəti sürücü də olacaq.

Sürücüsüz avtobuslar emissiyaları azaltmaq və xüsusilə şəhərlərdə insanların səyahət imkanlarını yaxşılaşdırmaq istəyən ictimai nəqliyyat şirkətləri üçün arzuolunan seçimdir. Özünü idarə edən bu nəqliyyat vasitələri yeni avtobus xətləri yaratmaq üçün də tələb olunan maliyyəni azaltmağa imkan verəcək.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank bunu milli texnologiya hərəkatının uğuru adlandırıb. Nazirin "Tviter"dəki hesabında yazılıb: "Milli Texnologiya Hərəkatının daha bir qürurverici günü! Avropada ilk dəfə olaraq pilotsuz avtobus ictimai nəqliyyat sisteminə inteqrasiya olunacaq və şəhər nəqliyyatında istifadə ediləcək".

# "İnstaqram"da yenilik




**"İnstaqram"da ödənişli abunəlik funksiyası işə salınıb. Onun vasitəsilə istifadəçilər ən çox izlədikləri müəlliflərin eksklüziv kontentlərini (məlumatlarını) və "İnstaqram"ın bəzi funksiyalarını əldə edəcəklər.**

Qeyd etmək lazımdır ki, sosial şəbəkə ödənişli abunəlik funksiyasını test rejimində istifadəyə verib və o, hələ ki, "İnstaqram"ın ABŞ-dakı on məşhur istifadəçisi üçün aktivdir.

Funksiya vasitəsilə istifadəçilərin sevdikləri müəlliflərdən əldə edəcəkləri eksklüziv məlumatlara paylaşımlar və canlı yayımlar da daxildir. Bu cür abunəçilərin adları qarşısında bənövşəyi rəngdə xüsusi işarə əks olunacaq. Onun sayəsində kontent yaradıcıları hansı istifadəçinin bu funksiyadan yararlandığını biləcəklər.

Ödənişli aylıq abunə haqqı 0.99-99.99 ABŞ dolları arasında dəyişəcək. Kontent yaradıcıları özləri də aylıq ödənişin həcmini təyin edə biləcəklər. "İnstaqram" 2023-cü ilə kimi kontent yaradıcılarından bu məsələ ilə bağlı komissiya əldə etməyəcək. Yaxın həftələrdə ödənişli abunəlik funksiyasına sahib istifadəçilərin sayı artacaq.

# Yenilənmiş robot



**"Boston Dynamics" şirkəti dördayaqlı məşhur "Spot" robotunun yeni versiyasını təqdim edib. Əvvəlkindən fərqli olaraq,"Spot Enterprise" adlı yeni versiya mexaniki əllərə sahibdir. O, 11 kiloqram ağırlığında yükü asanlıqla qaldıra bilir. Robotun əli müxtəlif ötürücülər və kamera ilə təchiz olunub. Bunun sayəsində o, ətrafındakı obyektləri təyin və onlara təmas edə bilir.**

"Spot Enteprise"da həmçinin "Scout" adlı sadələşdirilmiş idarəetmə sistemi quraşdırılıb. Bu sistem brauzer üzərindən çalışır. Yeni modelə və 30 qat optik "zoom"a sahib 4K kameralar, yenilənmiş siqnal qəbuledicisi quraşdırılıb.

Qeyd etmək lazımdır ki, əvvəlki "Spot"a sahib olan şəxslər əlavə vəsait ödəməklə bütün yenilikləri öz robotlarına inteqrasiya edə bilərlər.

Boston şəhərindəki xəstəxanalardan biri "Boston Dynamics" şirkətinin bu məşhur dördayaqlısını əldə edib. O, həkimlərə COVID-19 virusuna yoluxmuş xəstələrlə uzaqdan ünsiyyət yaratmağa kömək edir. Robotun baş hissəsində iPad və ya digər videokonfrans cihazı üçün nəzərdə tutulmuş bərkidici yerləşdirilib. İki nəfər arasındakı ünsiyyət radiorabitə vasitəsilə yaradılır. Xəstəxanada qeyd ediblər ki, bununla tibb bacıları ilə virusa yoluxmuş şəxslər arasındakı təmas müddəti minimuma endirilib. Qaydalara əsasən, koronavirusa yoluxma şübhəsi olan insanlar xüsusi çadırlarda olan sırada gözləməli, həkimlərin suallarına cavab verməli və temperaturlarını ölçdürməlidirlər. İndiyədək bu proseslər üçün azı 5 tibb işçisi tələb olunurdu.

"Boston Dynamics" şirkəti pandemiya dövründə tibb işçilərinə yardım imkanlarını daha da genişləndirməyi planlaşdırır. Belə ki, yenilənmiş robotlar nəfəs alma tezliklərini, nəbz, temperatur və təzyiq yoxlamalarını, həmçinin ultrabənövşəyi lampalar vasitəsilə dezinfeksiya işlərini sürətlə və çox peşəkarcasına görə biləcəklər.

Şirkət özünün proqram təminatını hər kəs üçün əlçatan şəkildə təqdim edib ki, digər xəstəxanalar və robot istehsalçıları da ondan yararlana bilsinlər.

## "Apple"ın yeni məhsulları



"Apple" bu ilin payızında rekord sayda yeni məhsul təqdim edəcək. Yeni məhsullar bunlardır: "iPhone 14", "iPhone 14 Max", "iPhone 14 Pro", "iPhone 14 Pro Max", "iPad 10", naqilsiz şarj texnologiyası və M2 prosessoruna sahib yeni "iPad Pro", "MacBook Air", "MacBook Pro", "iMac", şirkətin fərdi prosessoruna sahib "Mac Pro", "AirPods Pro 2", "Watch SE 2" və "Apple Watch".

Bunlardan əvvəl isə 5G dəstəkli "iPhone SE" və A15 Bionic prosessorlu "iPad Air" modelinin təqdimatı planlaşdırılır.

## Karbon qazı toplayan mexaniki "ağaclar"

**Amerikanın Arizona Universitetinin tədqiqatçıları mexaniki ağaclar hazırlayıblar. Onlar atmosferdəki karbon qazını təbii ağaclardan daha effektiv şəkildə yığa bilir.**



Mexaniki ağaclar diametri 1.5 metr olan xüsusi disklərə malik yüksək sütunlar şəklindədirlər. Disklər bir-birindən 5 santimetrlik məsafədə yerləşirlər. Yüksək sütunların diskləri kimyəvi qətranla örtülür. Kimyəvi qətran atmosferdəki karbon qazının udulması üçün nəzərdə tutulub. Yığılmış qaz daha sonra nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş sintetik yanacağın istehsalında istifadə ediləcək. Bunun üçün xüsusi anbarlara yerləşdirilir. Bu üsulla yanacaq istehsalı prosesində neftlə qazın istifadəsini dəfələrlə azaltmaq mümkün olacaq.

Şirkət yaxın gələcəkdə bu cür mexaniki ağaclardan ibarət 3 ferma inşa etməyi planlaşdırır. Onlardan biri cari ilin sonunda Arizona ştatı ərazisində istifadəyə veriləcək. Sözügedən layihənin reallaşdırılması üçün alimlər ABŞ Energetika Nazirliyindən 2.5 milyon dollar maliyyə əldə ediblər.

12 mexaniki ağac bir gündə 1 ton karbon qazı yığa bilər. 1200 ədəd mexaniki ağacdan ibarət kiçik ferma 100 ton həcmində qaz yığmaq potensialına malikdir.

Daha böyük ərazisi olan ferma gün ərzində 10.000 ton karbon qazı yığa bilər.

Yeri gəlmişkən bir faktı da bildirək ki, dünyada hazırda qazın ifrazı o qədər çoxalıb ki, təbii ağaclar və meşə örtüyü onu yenidən oksigenə çevirməkdə çətinlik çəkir. Atmosferdə yığılan karbon isə qlobal istiləşməyə səbəb olur. İqlim dəyişikliyi ilə bağlı vəziyyət o dərəcəyə çatıb ki, insanlar hətta yanacaq və karbon ifrazının nə qədər qarşısını alsalar belə bu, iqlimin sağlamlaşdırılması bir yana, heç yaşamaq üçün də kifayət etməyəcək.

# Kosmosa səyahət

**Alimlər tərəfindən aparılmış yeni tədqiqatların nəticələrinin təqdim olunmasından sonra Marsın mənimsənilməsi və uzunmüddətli kosmik uçuşların reallaşdırılması sual altına düşüb.**



Kanada alimləri aşkar ediblər ki, çəkisizlik səbəbilə yaranan kosmik anemiya əvvəllər düşünüldüyü kimi, müəyyən müddətə yaranan bir problem deyil. Ottava Universitetinin əməkdaşları 14 astronavtın iştirakı ilə yeni tədqiqat aparıblar. Tədqiqat çərçivəsində məlum olub ki, çəkisizlik şəraitində olan zaman insan orqanizmi yaratdığı qan hüceyrələrindən daha çoxunu məhv edir.

Qeyd edək ki, orqanizmin normal funksionallığı şəraitində hər saniyədə 2 milyon eritrosit məhv edilir və eyni sayda yeniləri yaranır. Beynəlxalq Kosmik Stansiyadakı 6 aylıq missiya çərçivəsində isə astronavtın bədənində hər saniyədə 3 milyon eritrosit məhv olur. Hətta Yer kürəsinə geri dönəndən bir il sonra da onun bədənindəki qırmızı qan hüceyrələri səviyyəsi kosmik missiyadan əvvəlki səviyyəyə çatmır. Marsa uzunmüddətli səyahət öz növbəsində insan orqanizmində eritrositlərin çatışmazlığına səbəb ola və insan səhhətində problemlərə gətirib çıxara bilər.

Alimlərin sözlərinə əsasən bu, çəkisizlik şəraitində astronavtlar üçün problemlər yaratmayacaq. Lakin onlar Marsa endikdən və ya Yer kürəsinə geri döndükdən sonra müəyyən problemlərlə üzləşəcəklər. Nəticə etibarilə anemiya faktoru kosmik turizmi ləngidə bilər. Aparılmış tədqiqatların nəticələri onu da göstərib ki, müasir kosmik səyahətlərdə mövcud fiziki məşqlər və qidalanma özəllikləri astronavtlarda hemolizin və uçuşsonrası anemiyanın qarşısını ala bilməyib.

# Beyin implantı gerçəkləşir



**Beyin implantı layihəsi ilə məşğul olan "Neuralink" şirkəti bu texnologiyanın insan üzərində sınağına hazırlaşır. Bu əməliyyat, ilk növbədə, iflic və digər bu kimi nevroloji xəstəliklərin müalicəsi üçün nəzərdə tutulub.**

İnnovasiyalı üsulların tətbiqi ilə məşğul olan həkimlər və aparıcı mühəndislər klinik testlərdə iştirak etmək istəyən şəxslərlə sıx əməkdaşlıq edəcəklər. Hələ bir müddət öncə şirkətin rəhbəri İlon Mask bildirmişdi ki, beyin implantı artıq bu il ərzində insan beyninə inteqrasiya ediləcək. Lakin tibbi ləvazimat istehsalçıları öz məhsullarının insanlar üzərində testlərinə keçməzdən öncə bununla bağlı ABŞ-ın müvafiq orqanlarından icazə almalıdırlar. İcazənin verilməsi üçün isə bu və ya digər tibbi vasitənin insanlar üzərində testlərdə istifadəsinin təsirlərini qiymətləndirəcəklər. Yalnız bundan sonra yeniliyin insanlar üzərində testlərinə icazə veriləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

◆ Dünya gündəmi

# Pxenyan heç bir danışıqlara getmir

## ABŞ isə Şimali Koreyanın raket sınaqlarına cavab hazırlayır





ABŞ Şimali Koreya ilə yüksək səviyyədə əlaqələrin mümkünlüyünü istisna etmir, amma hələlik Pxenyan heç bir danışıqlara getmir. Vaşinqtonda isə KXDR-ə təzyiqin güclənməsini ən yaxşı cavab hesab edirlər.

ABŞ-ın KXDR üzrə xüsusi nümayəndəsi Son Kim tezliklə Cənubi koreyalı və yaponiyalı həmkarları ilə yeni əlaqələr quracaq. TASS agentliyinin məlumatına görə, bunu ABŞ dövlət katibinin Şərqi Asiya və Sakit okean məsələləri üzrə köməkçisi Daniel Kretenbrink cümə günü jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, Şimali Koreya məsələsi və KXDR-in nüvə və raket proqramlarının təhlükəsinə qarşı mübarizə Amerika Birləşmiş Ştatları, həmçinin Cənubi Koreya və Yaponiya üçün prioritetdir.

"Zənnimcə, yaxın günlərdə siz görəcəksiniz ki, üçtərəfli əsasda davam edən sıx əməkdaşlığımız səfir Son Kimlə onun yapon və Cənubi koreyalı həmkarları arasında qarşılıqlı fəaliyyət sayəsində daha da inkişaf edəcək", - deyə ABŞ dövlət katibinin köməkçisi bildirib.

ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Linda Tomas-Qrinfild BMT Təhlükəsizlik Şurasının KXDR üzrə qapalı iclasından sonra bildirib ki, ABŞ, KXDR-in ilkin şərt olmadan danışıqlar aparmaq üçün Vaşinqtonun təklifini qəbul edəcəyinə ümid edir.

"Biz hələ də KXDR-i ABŞ və digər ölkələrin təkliflərinə müsbət cavab verməyə çağırırıq. Biz dialoq aparmağa hazırıq", - deyə Tomas-Qrinfild vurğulayıb.

Amerikalı diplomatın dediyinə görə, ABŞ KXDR ilə müvafiq şəraitdə yüksək səviyyədə əlaqələrin mümkünlüyünü istisna etmir, amma Pxenyan, ümumiyyətlə, heç bir danışıqlara getmir.

Linda Tomas-Qrinfild qeyd edib ki, hələlik raket sınaqlarını davam etdirən KXDR-in hərəkətlərinə ən yaxşı cavab ABŞ tərəfindən təzyiqin gücləndirilməsidir.

Xatırladaq ki, Şimali Koreya ilin əvvəlindən raket sınaqlarını fəal şəkildə həyata keçirir. Belə ki, ötən bazar günü Pxenyan ortamənzilli ballistik raketini işə salıb və bu raket səs sürətini 16 dəfə üstələyib.

*Rizvan HİLALOĞLU, "Azərbaycan"*

# «Taclı virus» və qlobal iqtisadiyyat

## Reallıq və proqnozlar nədən xəbər verir

*Əvvəli 1-ci səh.*



Beləliklə, BVF qlobal iqtisadiyyatın 2021-ci ilin 5,9 faizlik artımı ilə müqayisədə, 2022-ci ildə 4,4 faiz artım göstərəcəyi proqnozlaşdırılır, 2023-cü illə bağlı 3,8 faiz kimi qeyd olunmuşdur. Bu isə 2022-ci ildə daha çox vaksinasiya aparılacağına və xəstəliyin müalicəsinə olan ümid və gözləntilərə bağlıdır.

Lakin BVF-nin hesabatına rəğmən bu gün dünyada elə proseslər gedir ki, hadisələri və iqtisadi göstəriciləri stabillik illərində olduğu kimi öncədən dəqiqliklə müəyyənləşdirmək çətindir. O cümlədən peyvendlərin vurulmasında da artımı proqnozlaşdırmaq mümkün olsa da, onun nə dərəcədə reallıqlarla uzlaşacağı məlum deyil.

Belə ki, bir sıra Aİ ölkələrində bu il yanvarın 15-də pandemiya ilə mübarizə tədbirlərinə qarşı kütləvi etirazlar keçirilmişdir. Almaniya, Avstriya, Fransa və İtaliyada minlərlə insan bu ölkələrin hökumətlərinin koronavirusla mübarizə siyasətinə etiraz etmək üçün küçələrə çıxdılar. Düzdür, Avropada vaksinasiyadan imtina edənlərə qarşı da etiraz mitinqləri təşkil edilir.

Yanvarın 15-də Almaniyanın Münhen, Furth, Hannover, Osnabrück, Schwerin, Flensburg və ölkənin bəzi digər şəhərlərində də anti-COVID məhdudiyyətlərinə qarşı kütləvi nümayişlər keçirilmişdir. Düsseldorfda keçirilən etiraz aksiyalarında 7 minə yaxın, Frayburqda isə 6 minə yaxın insan iştirak etmişdir.

Hadisələrin hansı səmtə inkişaf etməsindən asılı olaraq BVF-nin qarşıdakı il üçün növbəti proqnozlarında da bu ildəki kimi müəyyən xətalara yol verilə biləcəyini ehtimal etmək olar.

Bütün sadalanan amillərdən başqa BVF qlobal miqyasda iki mühüm məsələnin narahatlıq döğurduğunu diqqətə çatdırır: birincisi, inkişafda olan ölkələrdən kapitalın qaçışı, ikincisi, qlobal geopolitik risklərin yüksək səviyyədə qalmaqda davam etməsidir.

İİTKM-nin departament rəhbəri Ayaz Müseyibov qeyd edir ki, BVF bütün bunları nəzərə alaraq ölkələrə inflyasiyanın cilovlanması üçün daha sərt monetar siyasətin yeridilməsi, limitlənmiş fiskal imkanların isə səhiyyə və sosial istiqamətə yönəldilməsini təklif edir. Qeyd edim ki, daha öncəki hesabatlarında bank sektoru üçün, xüsusilə də inkişafda olan ölkələrdə korporativ borclar, bank olmayan kredit təşkilatlarında həssas maliyyə vəziyyəti, maliyyə bazarlarına çıxış, gəlirliliyin azalması kimi çağırışlarla adekvat mübarizə aparmaq üçün BVF kifayət qədər aktuallıq kəsb edən makroprudensial siyasət çərçivəsinin formalaşdırılmasını tövsiyə edir".

İİTKM-nin məlumatında göstərilir ki, eyni zamanda, vaksinləşmənin artırılması, qlobal əməkdaşlığın gücləndirilməsi kimi ənənəvi məqsədlər müsbət nəticələrə səmtləndirilə bilər.

Lakin problem ondadır ki, artıq yuxarıda qeyd etdiyimiz kimi, nədənsə inkişaf etmiş dövlətlərdə digərlərinə nisbətən vaksinləşmə bir sıra məqamlarda daha çox müqavimətlə qarşılanır. Bu barədə bütün Avropa dövlətlərinin KİV-də ətraflı məlumatları dərc edilir.

Bunu izləmək üçün, sadəcə, dünya mətbuatını vərəqləmək kifayətdir. Bu il yanvarın 15-də Avropa İttifaqının digər ölkələrində də anti-COVID məhdudiyyətlərinə, koronavirusa və məcburi peyvəndlərə qarşı kütləvi etiraz aksiyaları keçirilmişdır. Avstriyanın paytaxtı Vyanada Kurier qəzetinin məlumatına görə, 27 min narazı vətəndaş küçələrə çıxmışdır. Fransada "Radio Deutschlandfunk"a görə, yanvarın 15-də 50 min insan yeni "sağlamlıq pasportu"na və ya peyvənd pasportuna etiraz mitinqi təşkil etmişdir. Bundan əlavə, Romada böyük miqyaslı anti-COVID etirazları keçirilib. Onların iştirakçıları yaşı 50-dən yuxarı olan ölkə sakinləri üçün koronavirusa qarşı məcburi peyvəndin tətbiqinə və onun sahibinin COVID xəstəsi kimi bu xəstəliyə qarşı peyvənd olunduğunu və ya koronavirus testinin mənfi olduğunu təsdiqləyən "koronavirus pasportu"na qarşı çıxıblar.

Pandemiyanın fonunda təbii fəlakətlərin sürətlə artması da daha böyük narahatçılıqlar doğurur. Dənizlərin suyu azalır, göllər quruyur, çaylar və şəlalər sürətlə qeyb olur! Biz, ehtimal etmək olar ki, ümumbəşəri fəlakətlərin bir addımındayıq, ya artıq bütün qırmızı xətləri keçmişik. Faktiki olaraq iqlim dəyişikliyi ilə mübarizənin gücləndirilməsi günün aktual məsələsinə çevrilir. Bu isə təsadüfi deyil, çünki iqlim dəyişikliyi ilə qlobal mübarizənin "iqlimin xilası" üçün deyil, məhz iqtisadiyyatların öz inkişafları naminə aparıldığını təsdiqləyir.

Hadisələrin bu halda necə inkişaf etdiyini demək çətindir. Bütün istiqamətlərdə COVID ssenariləri dövlətlərin proqnozları ilə nə qədər harmonik uzlaşacaqsa, perspektivlərə də bir o qədər asan köklənmək olacaq.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*








# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

ilk yardım çantalarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 11 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

*Tender komissiyası*


# Ermənistan ordusunda ölüm kabusu yaşanır

## Ötən il ölkənin 76 hərbçisi həlak olub

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, araşdırmalar göstərir ki, Ermənistan silahlı qüvvələrində fərarilik, ölüm, zorlama, döyülmə, rüşvət alma, korrupsiya, intihara cəhd, intihar, təcavüz və digər nizamnamədən kənar halların sayı artan xətt üzrə inkişaf edib. Bütün bunlar həm də orduda çoxsaylı itkilərin yaşanmasına gətirib çıxarır. Özü də bu itkilərin əksəriyyəti qeyri-döyüş şəraitində baş verir.

Orduda xəstəlik və səfalətin durmadan genişləndiyi bir vaxtda hərbi qulluqçuları müalicə etmək üçün nə maddi vəsait, nə də yer çatışır. Bu isə xəstəlikdən ölən erməni əsgərlərinin sayının durmadan artmasına səbəb olur. Qarşıdakı dövr ərzində Ermənistan ordusunda vəziyyətin daha da pisləşəcəyi gözlənilir. Çünki ordunun maddi təminatı üçün Ermənistan hakimiyyətinin bütün resursları tükənmiş durumdadır.

Belə vəziyyətdə orduda fərarilik hallarının miqyasının daha da genişlənəcəyi gözlənilir. Yaranan acınacaqlı vəziyyətdən qorxuya düşən valideynlər indi müxtəlif üsullarla övladlarını hərbi xidmətdən yayındırmağa çalışırlar. Ən geniş yayılmış üsul isə erməni gənclərinin hərbi çağırış yaşına çatmağa az qalmış xarici ölkələrdən birinə, əsasən də Rusiyaya göndərilməsidir. Bu da Ermənistan ordusunun insan resursu baxımından ciddi problemlər yaşamasına təkan verib.

Göründüyü kimi, İkinci Qarabağ müharibəsində ağır itkilərlə üzləşmiş Ermənistan ordusu hələ də normal fəaliyyətini bərpa edə bilməyib. Son iki ildə fərarilik edən, qeyri-döyüş şəraitində ölən hərbçilərin də sayı artıb. Bu cür faktları erməni mediası ilə yanaşı, ictimai-siyasi fəallar da üzə çıxarırlar. Təkcə bir məqamı xatırladaq ki, ötən ilin yazında qeyri-döyüş şəraitində xidmət aparan erməni hərbçini nə yaxınları, nə də Müdafiə Nazirliyi tapa bilir.

2021-ci il fevralın 8-də hərbi xidmətə çağırıldıqdan sonra Basarkeçər rayonunun ərazisində xidmət aparan Koxb sakini 18 yaşlı Norik Mkrtçyan mayın 14-nə kimi orduda olub. Əsgər gözlənilmədən naməlum şəkildə itib. Hadisədən bir il ötməsinə baxmayaraq, hərbçinin anası hələ də oğlu haqqında heç bir məlumat əldə edə bilmir. Maraqlısı isə budur ki, əsgərin qeybə çəkilməsini məhz sadə vətəndaşlar üzə çıxarıblar. Mkrtçyanın itkin düşməsi barədə informasiyanı ötən ilin mayında Tavuş bölgəsinin Koxb icmasının rəhbəri Arsen Aqababyan mətbuata ötürmüşdü.

"XQA Vanadzor" isə rəsmi mənbələr, eləcə də mətbuatın sorğularına cavab olaraq yayılan informasiyalara əsaslanaraq ötən il Ermənistanda və sülhməramlıların müvəqqəti nəzarətində olan Azərbaycanın Qarabağ ərazisində ölən hərbçilərlə bağlı maraqlı faktlar yayıb. Qeyd edilir ki, 2021-ci ildə Ermənistan silahlı qüvvələrində və Qarabağda 76 hərbçi həlak olub. Bu 76 ölümün müxtəlif səbəbləri var. 19 fakt "atəşkəs rejimi"nin pozulması, 17 ölüm faktı sağlamlıq problemləri ilə əlaqələndirilir. 15 hərbçi isə avtomobil qəzaları nəticəsində həlak olub.

Ordudakı xaosu əks etdirən hesabatda 11 qətl işi də əks olunub. Onlardan 3-ü 2 və ya daha çox şəxsi öldürmə, 4-ü hərbi xidmət qaydalarının pozulması, 2-si silahdan düzgün istifadə edilməməsi, 1-i təhlükəli hava şəraitində adam öldürmə, 1 fakt isə qəsdən qətl törətmək ilə bağlıdır. Bundan başqa, 9 hal intihar etmək, 5 təbii qəza - 1 ölüm qar uçqunu, 1-i isə ildırım vurması ilə əlaqələndirilir. Həmçinin bura 1 avtomobil qəzası, 1 ağac uçması və 1 qəfil ölüm halı da aiddir. Müqayisə üçün qeyd edək ki, 2020-ci ildə hərbi əməliyyatlarla birbaşa əlaqəsi olmayan 100 hərbçi ölümü qeydə alınıb. Qeyd edək ki, hadisələrin əksəriyyəti, 75 faizi qeyri-döyüş şəraitində baş verib.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın hərb sistemində ciddi xaos yaşanır. Hətta İrəvan son bir ildə bir neçə dəfə müdafiə nazirini dəyişməklə ordudakı qarışıq vəziyyəti, böhranı düzəldə bilmir. Ölkədə hələ də fərarilərin çox olması səbəbindən hərbi amnistiya elan edilmir.

Valideynlərin dəfələrlə keçirdikləri etiraz aksiyalarında hökumətə övladlarının taleyi ilə bağlı çağırışlarına baxmayaraq, Paşinyan iqamətgahının divarları arxasında gizlənərək iştirakçıların qarşısına çıxmağa cəsarət etməyib. Bu səbəbdən erməni əhalisi arasında ona və ordu rəhbərliyinə inam tamamilə itib.

*Elçin CƏFƏROV, "Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın İdarə Heyətinin üzvü Tofiq Cahangirova qardaşı

**ATABƏY CAHANGİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5253
Sifariş 292
Qiyməti 40 qəpik